

## Denis Denisov: Ermənistanın təxribatlarının arxasında Qərb dayanır

15

Səs
№ 148 (6589) 19 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Dünyanın içindəki dünya...



5

# Bəşəriyyətin nüvə dərdi



11

## Rəşadətli sərhədçilərimiz



8

## Turistlər üçün zəngin məkan: **Qarabağ torpağı**



12

## İdeyalarımızı necə inkişaf etdirməliyik?



13



## "Ermənilər bölgəni tərk etməzdən əvvəl ekoloji terror törədirlər"

14



## Səhərlər su içmək vərdişi uzunömürlülüyün açarıdır

16

# İnam və etimadın nümunəsi



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Efiopiya Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adem Muhammed Mahmudun etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı səfirlə söhbət edib.

# Qazaxıstan Prezidenti Azərbaycana səfərə gəlir

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana səfər edəcək. SİA xəbər verir ki, bu barədə Qazaxıstan Prezidentinin mətbuat xidməti məlumat yayıb.Bildirilib ki, səfər çərçivəsində ticari-iqtisadi, nəqliyyat, logistika, mədəni-humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin strateji tərəfdaşlığın inkişafı məsələləri müzakirə olunacaq. Eyni zamanda iki ölkə arasında bir neçə sənədin imzalanması da gözlənilir.

Qeyd edək ki, səfər avqustun 24-də baş tutacaq.



# Azərbaycan Prezidenti Yeni Zelandiya səfirinin etimadnaməsini qəbul edib





Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Zelandiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Zoe Daun Kolson-Sinklerin etimadnaməsini qəbul edib.Səfir Zoe Daun Kolson-Sinkler etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Daha sonar dövlətimizin başçısı səfirlə söhbət edib.

# Prezident İlham Əliyev Çadın yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çad Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adum Danqay Nokur Qetin etimadnaməsini qəbul edib.Səfir Adum Danqay Nokur Qet etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.Dövlətimizin başçısı səfirlə söhbət edib.



# Prezident Cənubi Afrika Respublikası səfirinin etimadnaməsini qəbul edib

Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Dipuo Berta Letsatsi-Dubanın etimadnaməsini qəbul edib.Səfir Dipuo Berta Letsatsi-Duba etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.Dövlətimizin başçısı səfirlə söhbət edib..



# Prezident İlham Əliyev Monqolustan səfirinin etimadnaməsini qəbul edib





Avqustun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Monqolustanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qombosuren Munxbayarın etimadnaməsini qəbul edib.Səfir Qombosuren Munxbayar etimadnaməsini dövlətimizin başçısına təqdim etdb.Prezident İlham Əliyev səfirlə söhbət edib.Qombosuren Munxbayar son illərdə, xüsusilə 2018-ci ildə Monqolustan Prezidentinin Azərbaycana səfərindən sonra ikitərəfli əlaqələrin fəal şəkildə inkişaf etdirildiyini bildirib və bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının otuz illiyinin qeyd olunduğunu vurğulayaraq, Monqolustan Prezidentinin Azərbaycan Prezidentinə onun üçün münasib vaxtda ölkəsinə səfərə dəvətini çatdırıb.Azərbaycan Prezidenti İlham Əliyev dəvəti minnətdarlıqla qəbul edib.Görüşdə təhsil, turizm, investisiya sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

## Rəsmi xronika

Milli arxiv fondu sənədlərindən istifadə qaydasını pozanlar cərimələnəcək.Bu, Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanunda əksini tapıb. Dəyişikliklə Məcəllənin 391-ci maddəsinin adı (Arxiv sənədlərinin, sənəd kolleksiyalarının saxlanılması, qeydiyyatı və ya istifadə edilməsi qaydalarının pozulması) dəyişdirilərək yeni (Milli arxiv fondu sahəsində qanunvericiliyin pozulması) redaksiyada verilib.

***

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının tərkibi dəyişdirilib.Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "Dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında" fərman imzalayıb.Fərmana əsasən, 2022-ci il sentyabrın 1-dən dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) sertifikatlaşdırmadan keçən təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavə müəyyən edilib.

***

Azərbaycanda arxiv işi ilə bağlı vahid elektron məlumat sistemi yaradılacaq.Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Milli arxiv fondu haqqında" qanuna dəyişiklik edilməsi barədə qanunda əksini tapıb.

# Cənab Prezident tərəfindən
# BASKALDA VERİLƏN MESAJLAR

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgələrə səfərləri hər dəfə yaddaqalan olur və ölkə rəhbəri öz səfərləri zamanı çox ciddi mesajlar verir. Xüsusən də, öz mənfur əməllərindən, separatçılıq, terrorçuluq əməllərindən əl çəkməyən ermənilər üçün ünvanlanan mesajlar ölkə başçısının qətiyyətindən, siyasi iradəsindən xəbər verir, hansı ki, bunu düşmənlər çox yaxşı başa düşürlər. Başa düşürlər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman olduğu kimi, qətiyyət, siyasi iradə sahibidir və dəmir yumruq da öz yerindədir.**



Regionlara növbəti səfəri çərçivəsində cənab Prezident İlham Əliyev Baskal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verərkən də eyni şəkildə qətiyyət nümayiş etdirib və Ermənistan tərəfinə ciddi mesajlar verib. Cənab Prezident bu səfəri zamanı verdiyi müsahibəsində postmünaqişə reallıqları fonunda baş verən hadisələr barədə də fikirlərini açıq-aydın şəkildə ifadə edib. Bu dəfə də ölkə rəhbərinin çıxışı, hər zaman olduğu kimi diqqət çəkib və eyni şəkildə böyük marağa səbəb olub.

Cənab Prezident ermənilərin, separatçıların, terrorçuların təxribatlarına cavab olan "Qisas" əməliyyatına da toxunub və bu əməliyyatın cəza tədbiri olduğunu bildirib. Bildirib ki, cəmi bir neçə saat davam edən əməliyyatlar səbəbsiz deyildi və separatçıların, terrorçuların təxribatları nəticəsində bizim şəhidimizin axan qanı onlara çox baha başa gəldi. Ölkə rəhbəri bəyan edib ki, ermənilər bunu heç zaman unutmamalıdırlar. Bu isə o deməkdir ki, ermənilər bu "Qisas" əməliyyatından dərs almalı, səhvlərə, yanlışlıqlara bir də yol verməməlidirlər və əks halda onlar bununla bir daha qarşılaşmalı olacaqlar. "Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz", deyən ölkə rəhbərimiz "Qisas" antiterror əməliyyatının eynisinin, təkrarının bundan sonra daha geniş şəkildə ola biləcəyi barədə öz mesajını verib.

Həqiqətən də "Qisas" əməliyyatı uzun sürmədi, amma təxribat törədənlərdən tutmuş, sıravi ermənilərə qədər hamısı böyük qorxu yaşadılar. Əvvəla ona görə ki, Azərbaycan Prezidentinin qətiyyətinə, siyasi iradəsinə, Azərbaycan Ordusunun şücaətinə və xalqımızın birliyinə, həmrəyliyinə onların zərrə qədər şübhələri qalmayıb və 44 günlük müharibə və qazandığımız zəfər onlarda qətiyyən şübhə yeri qoymayıb. Onlar bilirlər ki, Azərbaycan Ordusu öz ərazisində hər an istənilən əməliyyatı keçirə bilər və bu zaman vəziyyətləri hədsiz dərəcədə ağır olar. Digər tərəfdən də, regionda maraqlı qüvvələrin belə bu əməliyyatlar zamanı müşahidəçi mövqe nümayiş etdirdiklərinin ermənilər şahidi oldular və kimsənin onların yardımına gəlməyəcəyinə əmin oldular. Əmin oldular ki, mənfur əməllərinin cavabı olaraq Azərbaycan tərəfi antiterror əməliyyatı keçirəcəyi təqdirdə kimsə kömlərinə yetişməyəcək, itkiləri həddən artıq çox olacaq və deməli, qorxuları da bu baxımdan səbəbsiz deyil. "Qisas" əməliyyatının öz missiyasını uğurla başa vurduğu isə əməliyyat sonrası baş verənlərdə öz təsdiqini tapdı.

Bildiyimiz kimi, 44 günlük müharibədə rüsvayçı məğlubiyyətlə qarşılaşan Ermənistan tərəfi postmüharibə dövründə uğursuzluğunu, zəifliyini gizlətməyə çalışdı. Məğlubiyyətlərini gah Paşinyanın, gah mövcud hakimiyyətin ayağına yazan, gah da orduda olan qarışıqlıqla əlaqələndirməyə çalışanlar postmüharibə dövründə guya ki, ermənilərin "qorxmaz", "cəsur" obrazlarını yaratmağa çalışdıqlarını müşahidə etməmək mümkün deyildi. Məhz müharibə bitdikdən sonra canlarını qurtaran ermənilərin özlərinə dırnaqarası "qoçaq" obrazı yaratmaq istəməsi, bunun üçün əldən-ayaqdan getməsi həm təəccüblü, həm də gülünc görünsə də, bu, fakt olaraq göz önündə idi. Ermənistan tərəfi hay-küy, qıy-qışqırıqla heç olmasa psixoloji üstünlük əldə etməyə çalışdığı da bəlli idi. Məsələ burasındadır ki, sonuncu əməliyyat, "Qisas" əməliyyatı onların bu niyyətlərini, arzularını da puç etdi və yalandan da olsa yaratmaq istədikləri "cəngavər" obrazını bir daha dağıtdı. Psixoloji üstünlük qazanmaq istəklərinin də gerçəkləşməsinə izn verilmədi.

Ölkə rəhbəri Baskal qəsəbəsinə səfəri zamanı verdiyi müsahibədə ermənilərin əldə etmək üçün dəridən-qabıqdan çıxdıqları status məsələsi barədə də qəti şəkildə mövqeyini ortaya qoydu və bildirdi ki, Qarabağda ermənilərin heç bir statusu olmayacaq! Prezident bir daha bəyan etdi ki, Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə də müstəqilliyi. Cənab Prezident onu da bəyan etdi ki, ümumiyyətlə, ermənilərin hansısa xüsusi imtiyazı da olmayacaq. Bu isə o deməkdir ki, Azərbaycan vətəndaşları necə, onlar da elə olacaq və Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da hüquqları elə qorunacaq və heç bir statusdan söhbət belə gedə bilməz.

Cənab Prezident İlham Əliyevin status barədə verdiyi mesajlar həm də onun uzaqgörənliyinin bariz nümunəsidir. Məsələ burasındadır ki, Azərbaycan ərazisində yaşayacaq ermənilər bu zamana qədər ərazilərimizdə yaşayan etnik qruplardan artıq statusa heç zaman malik ola bilməzlər və bu ədalətsizlik olar, hansı ki, buna da cənab Prezidentin yol vermədiyini hər kəs gördü. Ərazilərimizdə yaşayacaq ermənilərə hansısa statusun verilməyəcəyi barədə mesaj verilməsi çox düşünülmüş addım oldu. Bu gün Azərbaycan ərazisində yaşayan etnik qruplar, ləzgilər, avarlar, talışlar və digərləri ölkə rəhbərinin ədalətinin, prinsipiallığının şahidi oldular. Şahidi oldular ki, müharibə zamanı qanlarından, canlarından keçməyə hazır olan, canlarını əsirgəməyən etnik qrupların vahid Azərbaycan uğrunda xidmətləri qiymətləndirilir və heç bir topluma onlardan üstün status verilməsinə izn verilməyəcək. Cənab Prezidentin status barədə qeyd etdikləri buna ən tutarlı sübutdur və ən böyük əminlik deməkdir. Ona görə əminlik deməkdir ki, ölkə başçısı bu məsələdə israrlıdır və bu gün rəsmi Bakıdan ermənilərə xüsusi imtiyazın verilməsini tələb edənlərin gələcəkdə ölkə daxilində yeni etnik qarşıdurmalar yaratmaq istəkləri də ürəklərində qaldı və özləri də bildilər ki, Azərbaycanın unitar bütünlüyünü pozacaq hansısa bir addım heç bir halda qəbul edilməz.

Cənab Prezident öz müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı da çox kəskin mesajlar vermiş oldu. Ölkə başçısı hətta İrəvana vaxt qoydu və bu çox qətiyyətli addım olaraq qiymətləndirilir. Açıq-aşkar bəlli olur ki, Zəngəzur dəhlizi Prezidentin üzərində dayandığı və israrla tələb etdiyi prinsipial məsələlərdəndir. Onu da diqqətə çatdıraq ki, əslində, Zəngəzur dəhlizi 27 illik danışıqlar prosesinin gündəliyində olmayan və məhz cənab Prezidentin şəxsi təşəbbüsü ilə 10 noyabr bəyanatının mətninə daxil edilən bir məsələdir. Bu məqam da deyilənləri təsdiq edir. Təsdiq edir ki, Zəngəzur dəhlizi həm regional, həm də qlobal kontekstdə çox böyük maraq dairəsindədir və rəsmi Bakı öz mövqeyindən geri çəkilən deyil.

Ermənilərin delimitasiya komissiyası yaradılmasına əvvəlcə razı olmaması və sonra razılaşdıqlarını xatırladaq cənab Prezident bununla da çox aydın mesaj ünvanladı. Ünvanlanan mesaj o demək idi ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına da gec-tez razılıq verəcək. "Əl çəkin ərazi iddialarından və əgər əl çəkməsəniz, o zaman biz də ərazi iddiası qaldıra bilərik Ermənistana qarşı", deyən ölkə başçımız bununla çox kəskin şəkildə bəyan etdi ki, ərazi iddialarından əl çəkməyəcəkləri təqdirdə qarşılaşacaqları da onlar üçün ağrılı olacaq. Heç şübhəsiz ki, ermənilər cənab Prezident İlham Əliyevin mesajlarından öz "paylarını" artıq götürüblər və əminlikdə demək olar ki, nəticə də çıxarıblar, hətta razılaşacaqları qənaətinə də gəliblər.

Bir sözlə, ölkə rəhbərimiz hər səfərində olduğu kimi, bu dəfə də Baskal səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Ermənistan tərəfinə tutarlı mesajlar verdi. Ən yaxında bu mesajların təsirini hiss edəcəyimizə zərrə qədər şübhəmiz yoxdur. Əvvəla ona görə ki, ölkə başçımızın qətiyyətinin bir daha şahidi oldular və Azərbaycanın gücünə, Azərbaycan Prezidentinin siyasi iradəsinə bələd olanlar kimi öz işlərini yaxşı başa düşdülər. Digər tərəfdən də ermənilər bilirlər ki, onların başqa çıxış yolları yoxdur və Azərbaycanın tələbləri, ölkə başçımızın qoyduğu şərtlərlə razılaşmaq məcburiyyətindədirlər, hansı ki, bu məqam da onlara bir daha xatırladıldı.

***İnam Hacıyev***

# Sağlam ekoloji mühit



**Ölkəmizin sosial-iqtisadi, mədəni və digər sahələrini əhatə edən sürətli inkişafı müasir dünyanın mühüm problemlərindən olan ekologiya probleminə də xüsusi diqqət artırmaq zərurətini ortaya çıxarmışdır. Ekologiya problemlərinin həllinə yüksək dövlət qayğısı və bu işin dövlət siyasətinə çevrilməsi, ölkəmizin hər yerində ekoloji mühitin yaxşılaşdırılması üçün çoxşaxəli tədbirlərin həyata keçirilməsi artıq yüksək inkişafın, dövlətin vətəndaşına qayğısının və Azərbaycanda beynəlxalq standartların mövcudluğunun göstəricisidir.**

Son illər Azərbaycanda ekoloji problemlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkəmizin iqtisadi, sosial, mədəni və digər sahələrinin inkişafı, yeni iş yerlərinin yaradılması, eləcə də, ətraf mühitin sağlamlaşdırılması, xalqımızın rifahının yaxşılaşdırılması naminə təbii sərvətlərdən istifadə məsələləri ölkə vətəndaşlarının fəal iştirakına zəmin yaradıb. Nadir təbii şəraitə, zəngin sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi məsələlərinə daim xüsusi diqqət və qayğı göstərilib.

## 60-DAN ÇOX FAUNA VƏ 70-DƏN ÇOX FLORA NÖVÜNÜN ƏKSƏRİYYƏTİ ARTIQ MƏHV EDİLİB

30 ilə yaxın işğalda olan ərazilərimizə ekoloji zərbə vurulub. Bu gün onların aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər görülür. Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, yaşayış məntəqələrində olmuş bütün evlər, binalar, tarixi abidələr, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb. Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib. Düşmənlər burada evləri, meşələri yandırıb, ekoloji terror törədiblər.

Ümumiyyətlə, su ehtiyatlarının çirkləndirilməsi, meşələrin yandırılması taktikası Ermənistanın ekoloji terror siyasətinin əsas elementlərindən idi.

Ermənistanın həyata keçirdiyi təcavüz siyasəti nəticəsində işğal olunmuş ərazilərdəki Azərbaycan təbiətinə, bioloji müxtəlifliyinə və bütövlükdə, regionun ekoloji durumuna güclü təsir göstərmişdir. Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində 13197, 5 hektar qiymətli meşə sahəsi misli görünməmiş vandalizmə məruz qalıb. İşğal olunmuş ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitir. Ermənistanın işğalı altında olan Bəsitçay və Qaragöl qoruqları, Arazboyu, Laçın, Qubadlı, Daşaltı təbiət yasaqlıqları kimi qorunan ərazilərdə "Qırmızı kitab"a daxil olmuş 60-dan çox fauna və 70-dən çox flora növünün əksəriyyəti artıq məhv edilmişdir.

## AĞ FOSFOR BOMBALARI VƏ ŞUŞA MEŞƏLƏRİNDƏ YAŞANILAN FƏLAKƏT



44 günlük Vətən müharibəsində ermənilər qadağan olunmuş fosfor bombalarından istifadə edirdilər ki, bu bombaların düşdüyü ərazidə hər şey məhv edilib. Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarları məhv edilib. Bu ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların bir neçə il əvvəl kəsildiyini təsdiq edir. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində, təxminən, 110 min hektar ərazi sıradan çıxmışdır. Ağ fosfor bombalarından istifadə edən ermənilər Şuşa meşələrinə böyük zərbə endirmişlər.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə ekoloji fəlakətin ziyanların aradan qaldırmaq məqsədi ilə işlər görülür. İşğaldan azad olunmuş Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində, əsasən, Şərq çinarı olmaqla, ümumilikdə, 2000-dək müxtəlif növ ağac əkilib, 100 kiloqramdan artıq palıd və digər meşə ağaclarının toxumları səpilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülür. Su hövzələrinin tullantı suları ilə çirkləndirilməsi, atmosfer havasına zərərli qazların atılması, biomüxtəlifliyin azalması, torpaqların eroziyaya uğraması və şoranlaşması, tullantıların idarə olunması sahəsindəki çatışmazlıqlar mövcud ekoloji problemlər sırasında hesab olunur. Paytaxtımızda neft mədənlərinə yaxın ərazidə yerləşən və zərərli tullantılarla çirklənməyə məruz qalan bəzi göllərin qurudulması və abadlaşdırılması istiqamətində də tədbirlər həyata keçirilib. Zığ, Bülbülə, Hacıhəsən, Böyükşor kimi göllər neft tullantıları və zəhərli maddələrdən təmizlənərək abadlaşdırılıb.

Qabaqcıl dünya təcrübəsinə və yeni texnologiyaların tətbiqinə diqqət nəticəsində ölkədə müasir ekoloji monitorinq sistemi yaradılmışdır. Ətraf mühit komponentlərinin dəqiq analizi və qiymətləndirilməsi məqsədi ilə respublikanın müxtəlif bölgələrində, o cümlədən, ölkəyə daxil olan transsərhəd çaylarının üzərində ən müasir cihazlarla təmin olunmuş analitik tədqiqat laboratoriyaları təşkil edilmişdir. Bakı şəhərinin ekoloji vəziyyətinə təsir edən neftlə çirklənmiş torpaqların təmizlənməsi, sənaye müəssisələrinin şəhərətrafı ərazilərə köçürülməsi və yeni dünya standartlarına uyğun sənaye müəssisələrinin yaradılması prosesi uğurla davam edir. Eyni zamanda, bu gün fəaliyyət göstərən sənaye müəssisələrində quraşdırılmış qaz-toztutucu qurğuların səmərəli fəaliyyəti nəticəsində Bakı şəhərində stasionar mənbələrdən atmosferə atılan zərərli maddələrin miqdarının xeyli dərəcədə azalması müşahidə edilir.

Artıq ekoloji vəziyyətin sağlamlaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində hüquqi baza təkmilləşdirilmiş, bununla bağlı dövlət proqramları təsdiq edilmişdir. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına, hidrometeorologiyanın inkişafına dair milli proqramlar uğurla yerinə yetirilir. Ekoloji layihələr Azərbaycanın regionlarını da əhatə edir. Əhalinin təmiz su ilə təminatının yaxşılaşdırılması üçün də əməli işlər görülür. Təsadüfi deyil ki, milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri, məhz ətraf mühitin mühafizəsi və insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dünyanın içindəki dünya...





Həyatda heç də hamıya qismət olmur ki, insan övladına məxsus dünya içərisində özünə ayrıca bir dünya qursun. Bu, o insanlara nəsib olur ki, onlar hamının olduğu dünyaya sığmırlar. Özləri də istəmədən yaşadıqları dünyanın içində yeni bir dünyanın sakininə çevrilirlər. Bu, elə bir dünyadır ki, oradan ətrafa hüzür axır, insanlar bu dünyadan mənəvi qida alır, ona ehtiyac duyur, duyduqca da o dünyanın insanları həmişəyaşarlara çevrilirlər. Belə insanlar tək öz Vətəni, xalqı, milləti üçün deyil, bütün dünya üçün dəyərli, önəmli olurlar. Çünki varlığında da, yoxluğunda da bütün dünya onlardan danışır, onları xatırlayır, yenə də mənəvi qidanı onlardan alır. Bu il dünyaya gəlişindən 80 il ötən, lakin bu 80-nin cəmi 66 baharını yaşayan qəlblərimizin insanı, ruhumuzun qidası, fəxrimiz, qürurumuz Müslüm Maqomayev kimi. Görkəmli opera və estrada müğənnisi, bəstəkar, SSRİ-nin və Azərbaycan Respublikasının xalq artisti, ”Şöhrət Ordeni” laureatı Müslüm Maqomayev kimi...

### Qeyri-adi həyat və sənət

Müslüm Maqomayev kimi insanlar haqqında hər gün danışsaq, hər gün yazsaq, yenə azdır. Çünki dünyaya varlığı ilə bir töhfə, Allah vergisi olan bu sənətkar ruhumuzu, qəlbimizi bir-birindən gözəl əsərləri, mahnıları ilə oxşayıb hər zaman. Bizlər üçün böyük bir irs qoyub gedib. Bu irslə o daim bizimlədir. Əsrarəngiz səsi illər sonra da qulaqlarımızda çığnayacaq. Bu hissləri böyük sənətkarın özü bizlərə bəxş edib. Dinləyəndə bütün ruhumuz yenilənən, səsləndirdiyi mahnının bitməsini istəmədiyimiz Müslüm Maqomayev. O, bu dünyaya qeyri-adi insan kimi gəlmişdi. Qeyri-adi insan kimi də yaşadı və bütün dünyaya qeyri-adi sənət nümayiş etdirdi. Elə bu səbəbdən də Müslüm Maqomayev bütün dünyanın Müslümü, qeyri-adiliyi ilə seçilən, sevilən, həmişəyaşar sənətkarıdır.Bu hələ də dünya üçün bir sirdir ki, görəsən istedadlı insanlar bu həyatı nə üçün tez tərk edirlər. Bu sirr onların qeyri-adiliklərindəmi, yoxsa ömrün illərinin də gücünü sənətə sərf etməklərindədirmi, nə səbəbdəndir, bilinmir. Lakin sanki dünya da, həyat, da, ömür də qısqanır bu cür insanları. Onlara ehtiyacımız çoxaldıqca bir də baxırıq ki, həyat hökmünü vermiş, sevdiklərimiz dünyaya əlvida deyib getmişlər. Nə qədər bizimlə olsalar da, qəlblərimizin daim döyüntüsünə çevrilsələr də, lakin onları aramızda görmək bir başqadır. Axı əslində, onlara ölüm heç yaraşmır axı...1942-ci illə 2008-ci il arasındakı zaman kəsiyində cəmi 66 il yaşayan Müslüm Maqomayevi əsla itirmək istəməzdik. Çünki hələ bu qeyri-adiliyin nə bəhrələrini görəcəkdik, hələ o bənzərsiz səsdən nə mahnılar dinləyəcəkdik. Bu ölüm çox tez oldu. Qəlbimizi, ruhumuzu yaraladı. Lakin həyatın işlərini də bilmirik axı. Alın yazısından, qismət payından kim qaça, daldalana bilib ki...Bizə böyük sənətkardan qalan qərinələr var. Bu gün də, sabah da dinləyəcəyimiz gözəl ifalar var. Dinlədikcə heyranlığımızın artdığı, sanki möcüzələr diyarına düşübmüş kimi hiss etdiyimiz, xəyallara daldığımız o səs... Elə avqustun 17-də dahi sənətkarın doğum günündə Bakı metropoliteninin bütün stansiyalarında səsləndirilən Müslüm Maqomayev mahnıları yerin altında elə bərbəzəkli bir dünya yaratmışdı ki, adam özünü ən yaraşıqlı salonlarda böyük sənətkarın saatları ana çevirən konsertində hiss edirdi. Eskalatorun qalxıb yolçuluğu başa çatdırmasını, buradan ayrılmağı istəmirdi insan. Qalıb o səsi yenə də, yenə də dinləmək istəyirdi. Çünki bu səs qeyri-adi həyatında qeyri-adi sənət nümayiş etdirən o sevimli insana məxsus idi.

### Baba Müslüm... Nəvə Müslüm...

Korifey sənətkarın həyatı da, yaradıcılığı da hər kəsə məlumdur. Biz onu dərindən sevdiyimiz kimi, dərindən də öyrənməyə çalışmışıq. Çünki bu insan o qədər cəlbedici, yaddaşlara hopan səsə malik idi ki, bu, sanki həm də ilahi bir qüvvənin bəxş etdiyi özünü unutdurmamaq, qəlblərə həkk etmək sənəti idi.Düşünəndə ki, bu xalqın taleyindən iki Müslüm, iki Maqomayev keçib, həqiqətən bu, yalnız İlahi qüvvənin bəxşişi ola bilər, deyirsən. Biri gözəl, istedadlı bəstəkar baba Müslüm, digəri istedadlı, səs tembri ilə qəlblərin sarı siminə toxunmağı bacaran nəvə Müslüm...İstedad elə bir Allah vergisidir ki, nəsildə-kökdə kimdəsə varsa, o, zamanla bir də qayıdır. Eyni istiqamətdə olmasa da, sənətin müxtəlif sahəsində həmin istedad üzə çıxır. Elə baba Müslümdən nəvə Müslümə ötürülən istedad kimi... Azərbaycan incəsənətinə 15-ə yaxın simfonik əsər, o cümlədən iki opera, marşlar və bir neçə rapsodiya bəxş edən babanın nəvəsidir haqqında danışdığımız Müslüm Maqomayev. O babanın ki, azərbaycanlı şairlərin şeirlərinə əsaslanan bir çox vokal əsərlərin, hətta ömrün vəfa etmədiyi üçün bitirə bilmədiyi üç-”Sevgi” operası, ”Dəli Muxtar” baleti və ”Xoruz bəy” adlı musiqili komediyasının müəllifidir.Onun ”Nərgiz” operası klassik musiqi və səhnə forması üzərində qurulan ilk Azərbaycan operası sayılır. Üç yüzdən artıq Azərbaycan xalq mahnı və rəqsinin simfonik işlənməsi baba Müslümə aiddir ki, bəziləri 1927-ci ildə ”Azərbaycan Xalq Mahnıları” yığmasında dərc edilmişdir. Yığmaya həmçinin baba Maqomayev və Üzeyir Hacıbəyovun, həm də xalqın əsərləri daxil edilmişdir.Belə istedadlı babanın Müslüm kimi də nəvəsi olacaqdı. Bu istedad özünü gec büruzə də verə bilməzdi. O səbəbdən də nəvə Müslüm ilk dəfə 14 yaşında dənizçilər klubunda çıxış edir.19 yaşında Helsinkidə gənclər festivalında, 1963-cü ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində uğurlu çıxışları ilə şöhrət qazanmağa başlayır. 1960-cı ildən 1969-cu ilədək bir-birindən böyük uğurlara imza ata-ata gəlir və 1975-ci ildə ”Azərbaycan Dövlət Estrada Simfonik Orkestri”nin bədii rəhbəri təyin edilir. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər verir. 1970-ci illərdən həyatını estrada ilə bağlayır və görünməmiş populyarlıq qazanır. Keçmiş SSRİ-nin hər yerində çıxışlar edir, stadionlarda konsertlər verir, televiziya onun konsertlərinə geniş yer ayırır, qrammofon valları böyük tirajla buraxılır. Populyar mahnılarla yanaşı, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları məharətlə səsləndirir. Daha sonra Azərbaycan Ali Sovetinin deputatı olur, bir sıra orden və medallarla təltif edilir.Onun ən böyük arzularından biri İtaliyada təhsil almaq olur. Nəhayət, həmin gün də gəlib yetişir və gənc Müslüm Azərbaycan Opera və Balet Teatrı tərəfindən ”La skala” teatrına təcrübə toplamağa göndərilir. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanır, onlardan qiyabi olaraq vokal dərsləri alırdı. İndi isə gənclik xəyalları gerçəkləşmiş və ona Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olmuşdu.Beləliklə, Müslüm Bakıya əsl Fiqaro kimi qayıdır və ”Seviliya bərbəri” tamaşasında səhnəyə çıxır. Görkəmli pianoçu Rauf Atakişiyevlə dostluğu və əməkdaşlığı onun bu yolda daha böyük uğurlarına yol açır. ”Seviliya bərbəri” operasının hər tamaşası anşlaqla keçir və Bakı tamaşaçıları Fiqaronu - Müslüm Maqomayevi görünməmiş coşqu ilə qarşılayırlar. Sonra o, Eldar Quliyevin filmlərinə musiqi yazır. Daha sonra rejissor Qleb Drozdovun sifarişlərini yerinə yetirir. ”İqor polku haqqında dastan” əsərinin motivləri əsasında hazırlanmış ”Yaroslavna” tamaşasına musiqi bəstələyir. Özü həmin tamaşada knyaz İqor, Tamara Sinyavskaya isə Yaroslavna rollarını ifa edir. Yəqin ki, Tamara Sinyavskaya ilə Müslüm Maqomayevin tanışlığı da elə buradan başlayır ki, onlar sonralar ailə qururlar.Beləliklə baba Müslümün qüruru, fəxri olan nəvə Müslüm incəsənət aləmində parlaq və heç vaxt sönməyəcək bir ulduza çevrilir.

### 80 il nə idi ki...

İki gün öncə, Müslüm Maqomayevin 80 yaşının tamam olduğu gün, şəhərimizin Dənizkənarı Milli Parkında dünyaşöhrətli müğənninin abidəsinin açılması xəbərini oxuyanda da, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə xatirə gecəsini seyr edəndə də düşündüyüm yalnız bu fikirlər oldu: 80 il nə idi ki. Müslüm Maqomayev yaşasa idi, iki gün öncə 80 yaşı tamam olacaqdı. Nə çoxdur dünyada 80-90, hətta 100 yaşlı insanlar. Ömür vəfa etsəydi, böyük sənətkar da onlardan biri ola bilərdi. Lakin...Çox qürurverici haldır ki, ölkəmizdə insan amili böyük bir dəyərə malikdir. Həyatımızın bütün sahələrində, eləcə də mədəniyyət, incəsənət sahəsində izi olan insanların əməyi yüksək qiymətləndirilir, adları uca tutulur, xatirələri əbədiləşdirilir. Elə Prezident İlham Əliyevin 2020-ci il martın 12-də Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə dəyərli töhfələr vermiş fitri istedada malik görkəmli sənətkar Müslüm Maqomayevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı imzaladığı Sərəncama əsasən Dənizkənarı Milli Parkda ucaldılan abidə dediklərimizi təsdiqləyən faktlardandır.Açılış mərasimində Prezident cənab İlham Əliyevin səmimi çıxışı böyük sənətkara qayğı və eyni zamanda məhəbbətin, doğmalığın təzahürü idi: Azərbaycan xalqı haqlı olaraq Müslüm Maqomayevlə fəxr edir. Çünki o, həm böyük müğənni, həm də böyük bəstəkar idi. Sovet estradasında onun tayı-bərabəri yox idi və bu gün də Müslüm Maqomayevin ifasında səslənən mahnılar hər birimizi duyğulandırır. Hər birimizin Müslüm haqqında öz xatirələri var, o cümlədən mənim də. Mən yeniyetmə yaşlarımdan Müslümü və Tamaranı tanıyıram. Onlar bizim evimizin çox əziz qonaqları idi. Bir çox gözəl xatirələrim var. Əlbəttə ki, hər il avqust ayında Müslüm və Tamaranı biz öz evimizdə qarşılayaraq, Müslümün ad gününü evimizdə qeyd edirdik... Müslüm öz doğma Vətəninə çox bağlı olan bir insan idi. Baxmayaraq ki, öz fəaliyyətini daha çox Moskvada və Sovet İttifaqının digər şəhərlərində qastrollarda keçirirdi, ancaq hər il bir neçə dəfə Bakıya gəlirdi, həm konsertlər verirdi, həm də ki, burada öz dostları ilə təmasda olurdu. O cümlədən, həm Moskvada, həm Bakıda bizim çoxlu görüşlərimiz və çox səmimi münasibətlərimiz olub.Həmin günün axşam saatlarında ”Yaşıl Teatr” Bakı Konsert Kompleksində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Müslüm Maqomayevin 80 illik yubileyinə həsr olunmuş xatirə gecəsinin keçirilməsi, cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tədbirdə iştirak etmələri böyük sənətkara sonsuz sevginin daha bir təzahürü oldu. Xatirə gecəsində dövlətimizin başçısı demişdir: Bu gün unudulmaz bir gündür. Bu gün səhər əziz Müslümün şəhərimizin ən gözəl yerlərindən birində - bulvarda abidəsini açdıq. Onu da bildirməliyəm ki, bu günə qədər bulvarda heç bir abidə olmamışdır. Birinci abidə Müslümün şərəfinə qoyulub və bu, təbiidir. Çünki bulvar şəhərimizin gözüdür. Bulvar Müslümün də ən sevimli yeri olmuşdur. Bu gün bu abidə bir daha onu göstərir ki, Azərbaycan xalqı Müslümü nə qədər sevirdi və o, bu sevgiyə nə qədər layiq idi.

### ”Əlvida, Bakı” yox, ”Salam, Müslüm”...

Müslüm Maqomayevin ömrünün son anlarında yazdığı ”Əlvida, Bakı” mahnısına da abidənin açılışında öz münasibətini bildirən dövlətimizin başçısı demişdir: Müslümün öz doğma torpağına bağlı olması onun yaradıcılığında da özünü göstərib. Azərbaycana, Odlar Yurduna, Xəzər dənizinə həsr edilmiş onun bəstələdiyi mahnılar nə qədər əzəmətlidirsə, o qədər də Vətənə sevgi ilə dolu olan mahnılardır. O mahnılar bu gün də yaşayır və əbədi yaşayacaq. Müslümün bəstələdiyi son mahnı isə çox kədərlidir. Biz bu mahnını Bakıda Filarmoniya zalında Müslümlə vida mərasimində eşitdik və çox təsirləndik, çox duyğulandıq. Çünki bilmirdik ki, bu mahnı yazılıb, Müslüm özü onu bəstələyib. O mahnının adı ”Əlvida, Bakı” idi və o anlayırdı ki, artıq Bakıya gələ bilməyəcək, ən sevimli şəhərə gələ bilməyəcək, bu küçələrdən keçə bilməyəcək, Bakıdakı dostları ilə görüşə bilməyəcək. Təsəvvür etmək çətindir ki, onun kimi həyatı sevən, onun kimi, necə deyərlər, dostlarla bir yerdə olmaq həvəsində olan adam, bax, bu vida mahnısını bəstələyir və bizimlə, şəhərlə vidalaşır. Eyni zamanda, bu, onu göstərir ki, hətta sağlamlığı o qədər də yaxşı olmayan vəziyyətdə onun istedadı, onun böyük sənətkar olması yenə də yerində idi... ”Əlvida, Bakı”, əlbəttə, o mahnıdır ki, Müslüm öz duyğularını ifa edirdi, ancaq, eyni zamanda, heç vaxt ”Əlvida, Bakı” demək mümkün deyil. Çünki Müslüm bizimlədir. O, bu gün Bakıdadır, onun gözəl abidəsi bu gün açılacaq və Bakı heç vaxt onu unutmayacaq. Azərbaycan xalqı heç vaxt onu unutmayacaq. Onun xatirəsi onu tanıyanların qəlbində yaşayacaq, onun möhtəşəm səsi, onun sənəti əbədi yaşayacaqdır.Bu dəyərli və romantik fikirlərin ardınca Prezident cənab İlham Əliyevin ”...Bu abidəni biz ucaltdıq və bu abidə üçün, hesab edirəm ki, ən məqbul yer seçdik. Bulvar Bakının gözüdür, Bakının mərkəzidir, Bakının tacıdır və bulvarda dahi sənətkarlarımızın ruhları dolaşır, o cümlədən Müslümün. Ona görə bu abidəyə yaxınlaşan bizim vətəndaşlarımız ”Salam, Müslüm” deyəcək və Müslüm əbədi yaşayacaqdır” kimi fikirləri çox qiymətlidir. Dövlətimizin başçısı Müslüm Maqomayevin ”Əlvida, Bakı”sına ”Salam, Müslüm” deməklə onun bura-Bakıda əbədiyaşarlığını təsdiqlədi. Zamanla önündən keçən hər kəsin salamı ilə bu abidənin Müslüm Maqomayevin qəlbində ucaltdığı abidə ilə eyniliyi də öz əksini tapacaqdır.

*Mətanət MƏMMƏDOVA*

# Şəhid ailələri və qazilərə qayğı dövlət siyasətinin prioritetidir

Bu gün hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir.Bu gün Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan bütün dünyaya öz gücünü göstərərək 30 ildir ki, düşmən tapdağında olan tarixi torpaqlarını işğaldan azad etdi. Bu qalibiyyət Azərbaycan dövlətinin, xalqının nə qədər məğrur olduğunu bir daha sübut etdi. Ermənilərin sülh və insanlıq əleyhinə törətdiyi cinayətlər də



PREZİDENT İLHAM ƏLİYEV: "Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq"





bir daha dünyanın gözü önünə gətirildi. 44 günlük Vətən müharibəsində Azərbaycan dövlətinin, xalqının bir yumruq kimi birləşməsi dünya ölkələri və xalqlarına örnək oldu. Xalqımız sübut etdi ki, azərbaycançılıq ideyası, dövlətçilik bizim üçün hər şeydən üstündür. Şəhidlərimizin, qazilərimizin canı və qanı bahasına geri qaytardığımız torpaqlarda bu gün çiçəklənmə dönəmidir. Hər kəs anlayır ki, biz bu gün həmin torpaqlara ayaq basa bilirksə, bunu şəhid və qazilərimizə borcluyuq.Azərbaycan son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da ölkəmizin müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır.

## HƏRBÇİLƏRİN SOSİAL MÜDAFİƏSİ MƏSƏLƏLƏRİ DƏ AZƏRBAYCANDA YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİR

İyulun 15-də Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin toxunduğu mühüm məsələlərdən biri də hərbçilərin sosial müdafiəsi və müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemlərinin daim diqqət mərkəzində saxlanıldığını, ümumiyyətlə, hərbçilərin sosial müdafiəsi məsələləri ölkəmizdə yüksək səviyyədə təmin edildiyinini bildiridi: "Hərbçilərin sosial müdafiəsi məsələləri də Azərbaycanda yüksək səviyyədə təmin edilir. Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır".

Ardı Səh. 7

Əvvəli Səh. 6

Dövlətimizin başçısıçıxışı zamanı vurğuladı ki, indi qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir: "Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik. Əlbəttə ki, müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir və müvafiq göstərişlər verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu müddət ərzində, müharibədən sonrakı dövr ərzində böyük işlər görüb, bunu hamı bilməlidir".

Prezident qeyd edib ki, müharibədə əlil olmuş bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olunublar. "Dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.



# Şəhid ailələri və qazilərə qayğı dövlət siyasətinin prioritetidir



## NÖVBƏDƏ OLAN BÜTÜN ŞƏHİD AİLƏLƏRİ YAXIN GƏLƏCƏKDƏ EVLƏRLƏ TƏMİN EDİLƏCƏK

"Müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verildi və hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir".

Bu barədə Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində bildirib."Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni, əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu, reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın olan yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik. Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək", - deyə dövlətimizin başçısı vurğulayıb.Reabilitasiya mərkəzləri yaradıldığını və ən müasir texnologiyalarla təchiz edildiyini diqqətə çatdıran Prezident deyib: "Minlərlə xidmət göstərilir, müharibə əlilləri üçün, veteranlar üçün, şəhid ailələri üçün məşğulluq marafonları keçirilir. Ümumiyyətlə, bu kateqoriyadan olan insanları fəal işə cəlb etmək üçün böyük işlər görülür. Bu, bəlkə də unudulur, bəlkə də bunu daha çox göstərmək lazımdır və qiymətləndirmək lazımdır, özü də bizim qarşımızda bu boyda işlər ola-ola".Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: "Bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq".

Dövlət başçısı, eyni zamanda, şəhid ailələrinin sosial təminatı ilə də bağlı fikirlərini bildirib: "Eyni zamanda, şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq".

Belə olan halda bu uğurları görə bilməyən, gələcək nəsillərə pis nümunələr qoymaq istəyən satqınlar cəzalandırılmalıdır. Çünki bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj etməsi, müxtəlif səhnələr quraraq dövlət orqanlarını qınaq hədəfinə çevirmək cəhdləri yolverilməzdir, həm də qazi adına ləkə gətirənlər müharibədə döyüşənləri, şəhid ailələrini narahat edir. Ona görə də hamılıqla, belə qazi kölgəsi altında araqarışdıranlara qarşı dövlət də, cəmiyyət bir olmalı, öz sözünü deməlidir.

Çünki bu gün sözünə sadiq, sözü imzası qədər dəyərli və keçərli olan Prezident İlham Əliyev vədlərini yerinə yetirir və yetirəcək. Daha güclü Azərbaycan naminə! Dövlətimizin başçısının vurğuladığı kimi, "biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, bütün sahələrdə onu yerinə yetirmişik, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın!".



***RƏFİQƏ HÜSEYNOVA***

# Rəşadətli sərhədçilərimiz

## Sərhədlərimizin qorunması qürur mənbəyi və iftixar hissidir



Ölkə daxilində mövcud olan ictimai-siyasi sabitlik və əmin-amanlıq Azərbaycanın əldə etdiyi uğurlardır. Azərbaycan dünya miqyasında böyük nüfuza sahibdir, etibarlı tərəfdaşdır və regionda gedən proseslərdə fəal iştirak edir. Əldə olunan bu və ya digər nailiyyətlərlə yanaşı, ölkəmizin təhlükəsizliyinin qorunması istiqamətində də böyük işlər görülüb. Hər bir dövlətin ərazisini onun sərhədləri müəyyənləşdirir. Sərhəd müqəddəs məfhumudur. Azərbaycanın dövlət atributları olan himni, bayrağı və gerbi ölkənin müstəqilliyini təsdiq edən amillərdən biri olduğundan, sərhəd məfhumu, sərhəd anlayışı da bu suverenliyin qorunmasında müstəsnadır. Sərhədlərimizin qorunması Azərbaycan vətəndaşının qürur mənbəyi və iftixar hissidir. Bu sərhədlərin toxunulmazlığını təmin edən isə, sərhədçidir. Azərbaycan xalqı qarşısında böyük məsuliyyət hissi daşıyan sərhədçi bu günümüzün və sabahımızın qoruyucusudur desək, fikrimizdə yanılmarıq. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət sərhədlərinin qorunması, əsas məsələ olaraq diqqətdə idi. Müstəqilliyimizin qorunmasında dövlət sərhədlərinin toxunulmazlığı əsas məsələ olaraq qarşıda dururdu. Azərbaycanın sərhəd mühafizəsi xidmətinin keyfiyyətcə yenidən təşkili, formalaşdırılması və inkişafı müasir tariximizin yaradıcısı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1992-93-cü illərdə dövlət sərhədinin mühafizəsinin gücləndirilməsi sahəsində hökumət bir neçə qərar versə də, bu qərarların yerinə yetirilməsi lazımi səviyyədə təşkil olunmurdu. Səriştəsizlik, xüsusi ilə xarici qüvvələrin dağıdıcılıq fəaliyyəti ilk vaxtlar Sərhəd Qoşunlarının formalaşması prosesində inamsızlıq yaradırdı. Dövlət sərhəd zolağının bəzi yerlərində keçilməz tikanlı məftillərin sökülməsi və müxtəlif strateji malların kənara daşınmasına şərait yaradılması respublikamızın iqtisadiyyatını sarsıdır, bəzən də sərhədlərimizi qoruya bilməyəcəyimiz barədə ortaya atılan bədxah fikirləri sübuta yetirməyə xidmət edirdi.



TƏHLİL





## SƏRHƏDÇİ PEŞƏSİNƏ VERİLƏN QİYMƏT



1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti sərhədlərin mühafizəsi haqqında Qanun qəbul etmişdir. Ulu Öndər Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli Sərəncamı ilə 18 avqust hər il sərhədçilərin peşə bayramı günü kimi qeyd olunur. Bu münasibətlə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Prezident Sərəncam imzalayıb. Azərbaycan dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə, bir neçə hərbi qulluqçu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif ediliblər.Eyni zamanda "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında"Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Dövlət Sərhəd Xidmətinin bir neçə hərbi qulluqçularına ali hərbi rütbələr - general-leytenant və general-mayor ali hərbi rütbəsi verilib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2000-ci il avqustun 18-nin sərhədçilərin peşə bayramı günü kimi rəsmiləşdirilməsi Azərbaycanda sərhədçi peşəsinə verilən əhəmiyyətin təzahürüdür. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra, ölkəmizdə sərhəd infrastrukturu mövcud deyildi. Sovet imperiyası dövründə olan sərhəd infrastrukturu, demək olar ki, tamamilə məhv edilmişdir. Ulu Öndərin rəhbərliyi altında, qısa müddət ərzində, Azərbaycanın sərhədlərində tikinti-quruculuq işləri başlanmışdır. Milli sərhəd mühafizəsinin formalaşdığı 1993-2002-ci illərdə dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili sahəsində böyük irəliləyişlərə nail olundu. Sərhədçi zabit və gizirlərin, xüsusilə, ehtiyatdan xidmətə qəbul olunanların bilik və peşə bacarığını artırmaq məqsədi ilə sərhəd mühafizəsinin tərkibində 1994-cü ildə Kadrların Hazırlanması və Təkmilləşdirilməsi Kursları yaradıldı.

2002-ci ilin iyul ayının 31-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə Fərman imzaladı. Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsi ilə Azərbaycan sərhədçilərinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Dövlət Sərhəd Xidməti qarşısında müasir dövrün tələblərinə uyğun olaraq, yeni vəzifələr qoyuldu və sərhəd təhlükəsizliyinin təminatı məsələlərinin ən yüksək səviyyədə həll olunmasına başlanıldı. 2002-ci ilin oktyabr ayının 24-də sərhəd aviasiyası yaradıldı, DSX-nin balansına verilmiş təyyarə və vertolyotlar əsaslı təmir edilərək, xidmətə cəlb olundu, sərhədin havadan mühafizəsinin təşkili, dövlət sərhədində baş verən hadisələrə çevik reaksiya verilməsi və şəxsi heyətin təyinat yerinə vaxtında çatdırılması, dağlıq ərazilərdə və dənizdə xilasetmə əməliyyatlarının aparılması üçün sərhəd aviasiyasının istifadəsinə başlanıldı.

Ümummilli Lider sərhəd mühafizəsinə daim yüksək diqqət və qayğı göstərərək, sərhədlərimizin toxunulmazlığının təmin edilməsini başlıca vəzifəsi kimi dəyərləndirirdi. "Hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillərdən biri onun dövlət sərhədləri və bu sərhədlərin toxunulmazlığıdır", - deyən Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasəti müasir dövrümüzdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmizin sərhəd mühafizəsi dinamik inkişaf mərhələsindədir. Dövlət sərhədlərinin mühafizəsi sisteminin təkmilləşdirilməsi və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində çoxsaylı uğurlar qazanılmışdır. Bu gün Azərbaycan sərhədləri bütün istiqamətlərdə - quruda və dənizdə lazımi səviyyədə qorunur. Sahil Mühafizəsinin yeni bazası Xəzər dənizində dövlət maraqlarımızın yüksək səviyyədə qorunmasına, fasiləsiz müşahidə və nəzarət imkanlarının artırılmasına geniş imkanlar yaradıb. Dəniz sərhədlərinin müasir mühafizə sisteminin yaradılması məqsədilə sahilboyu texniki müşahidə məntəqələri şəbəkəsi yaradılıb.

## GECƏ-GÜNDÜZ SƏRHƏDDƏ KEŞİK ÇƏKƏNLƏR

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olundu. Dövlət başçısının tapşırığına əsasən bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması üzrə kompleks tədbirlər həyata keçirilir. Həmin ərazilərdə qısa müddət ərzində sərhəd zastavalarının fəaliyyəti bərpa edilib, Zəngilan, Qubadlı rayonlarından və Laçın rayonunun bir hissəsindən keçən Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsinin təşkili məqsədilə 19 yeni hərbi hissə kompleksi, 110 sərhəd-döyüş məntəqəsi, "Eyvazlı" və "Qazançı" dövlət sərhədindən buraxılış məntəqələri inşa olunub. Bütün bunlarlp yanaşı "Füzuli" beynəlxalq hava limanında sərhəd nəzarəti işi təşkil edilib. Azərbaycan sərhədləri, demək olar ki, dost ölkələrlə əhatə olunub. Əldə silah gecə-gündüz sərhəddə keşik çəkən sərhədçilərimiz fədakarlıq göstərirlər. Ulu Öndər Heydər Əliyev ideyalarına, dövlətçiliyə və xalqa sədaqətini dəfələrlə nümayiş etdirən Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərhədlərimizin mühafizəsinə göstərdiyi yüksək etimadı doğrultmaq üçün şərəflə və ləyaqətlə xidmət edir. Azərbaycan qonşu dövlətlərlə anlaşma şəraitində yaşayır. Azərbaycan bütün dövlətlərlə əməkdaşlığa hazırdır. Bu gün Azərbaycan sərhədçiləri ölkəmizin ərazi bütövlüyünün qorunmasında, sərhədlərimizin təhlükəsizliyinin təmin olunmasında əsl rəşadət göstərirlər.

***Zümrüd BAYRAMOVA***



# Ərdoğanla Zelenski arasında olacaq görüşdən GÖZLƏNTİLƏR



BMT baş katibi Antoniu Quterreşin avqustun 18-də Lvovda Ukrayna Prezidenti Volodimir Zelenski və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla keçirəcəyi görüş bütün dünyanın diqqət mərkəzindədir. İstər Rusiyanın elan etdiyi və hələ də davam etdirdiyi müharibənin sonlandırılması, istər qlobal böhranın aradan qaldırılması, istərsə də beynəlxalq müstəvidə bir sıra məsələlərin müzakirəsi və həllində Türkiyənin imkanlarını bütün dünya başa düşür, görür, qəbul edir və bu baxımdan sözügedən görüşdən gözləntilər böyükdür.Sözsüz ki, Ərdoğanla Zelenski arasında keçiriləcək görüşdə müzakirə ediləcək məsələlər dedikdə, ilk növbədə hələ də davam edən Rusiya-Ukrayna müharibəsinin ön planda olduğu düşünülür. Əvvəla ona görə ki, görüş məhz Ukrayna və Türkiyə prezidentləri arasında baş tutur və mövcud müharibənin fonunda ilk düşünülən də budur. Digər tərədən də görüşün məhz Lvovda keçirilməsi bunu deməyə əsas verir. Təbii ki, Rusiyanın elan etdiyi və hələ də davam edən müharibənin müzakirə mövzuları olacağını düşünməkdə hər kəs haqlıdır və bu məsələnin danışıqlar masasında olacağına zərrə qədər şübhə yoxdur.Heç şübhəsiz ki, Zelenski son dövrlərdə Türkiyənin Rusiya ilə daha yaxşı münasibətlərdə olduğunu nəzərə alıb. Həmçinin, Ərdoğanın Putinlə münasibətləri də Zelenskinin diqqətindən yayına bilməz. Zelenski Türkiyə prezidentinin imkanlarına yaxşı bələddir. Ukrayna prezidenti Ərdoğanın imkanlarından, eləcə də söz sahibi olmasından, xüsusilə də, Putinin ona olan rəğbətindən, münasibətindən də yararlanmaq istəyir. Təbii ki, yararlanmaq dedikdə, müharibənin sonlandırılması nəzərdə tutulur. Bu isə hal-hazırda Ukrayna üçün ən vacib məqamdır və mövcud şəraitdə bu ölkə üçün ən aktual problem məhz savaşın başa çatdırılması, müharibənin sönlandırılmasıdır. Elə bu baxımdan da cəsarətlə deyə bilərik ki, Zelenskinin görüş zamanı masaya çıxaracağı məsələnin biri və hətta birincisi müharibə mövzusu, savaşın başa çatdırılması məsələləri olacaq.

Xatırladaq ki, Ərdoğan Putinlə son bir ayda düz iki dəfə görüşüb. Şübhəsiz ki, hər iki görüş zamanı müharibə mövzusu da müzakirə edilib, hansı ki, bunu Zelenski də belə düşünür. Deməli, Zelenski həm də Putinin nə düşündüyünü də bilmək istəyir və bu görüş zamanı Rusiya prezidentinin istəyinin, təkliflərinin ona deyiləcəyini də gözləyir. Elə Ərdoğanla masa arxasına keçməkdə Zelenskinin bir məqsədi də budur. Ukrayna prezidenti ümid edir ki, görüşləri zamanı Putinin müharibə barədə təkliflərini Ərdoğan birbaşa onun özünə çatdıracaq. Rusiya prezidentinin təkliflərinin isə Ukrayna prezidenti üçün çox maraqlı olduğunu təbii ki, hamı çox yaxşı bilir və bunun səbəbi də aydındır. Ən azından, Zelenski Rusiya tərəfinin nə kimi addımlar atmaq istədiyini bilmək istəyər və 18 avqust tarixində görüş keçirmək istəyi bu baxımdan da başa düşüləndir.Zənnimizcə, Ərdoğanın Zelenski ilə görüşünün təşkili həm də onu deməyə əsas verir ki, Rusiya tərəfinin masaya qoymaq üçün ciddi mətləbləri var. Ələlxüsus iki ölkə prezidentlərinin görüşlərinin ardınca dərhal görüş keçirmək niyyəti düşünülməmiş ola bilməz. Doğrudur, Ərdoğanın Ukrayna prezidentini Putinin şərtlərinə razılaşacağını söyləmək olmaz, çünki Rusiya prezidentinin şərtləri Ukraynanın ərazi bütövlüyü və suverenliyi baxımından sərfəli hesab edilməyə bilər. Buna baxmayaraq, hələ hansı şərtlərin olacağını bilmədən fikir söyləmək də doğru olmaz. Hər bir halda, görüşün baş tutduğu zaman və nəticələr barədə məlumat verildiyində gözləntilərin nə olacağını daha dəqiq söyləmək olar.Putinin nə düşündüyü, nə təklif etdiyi hələ bəlli deyil. Bu təkliflərlə, ələlxüsus Putinin mövqeyi ilə Ərdoğanın da razı olmasını qəti şəkildə demək olmaz. Ən azından, son bir ayda iki görüş keçirilməsi onu deməyə əsas verir ki, Rusiya və Türkiyə tərəfi hansısa ümumi razılığa gələ bilib. Bəlkə də keçirilən görüşlər zamanı iki ölkə prezidenti arasında hansısa uyğun, münasib sayılan bir variant müzakirə mövzusu olub. Yaxud ola bilsin Rusiya və Türkiyə prezidentləri keçirdükləri görüşlər zamanı ortaq məxrəcə gələ biliblər, ya da ortaq fikir yaranıb. Çox güman ki, Lvovdakı görüşdə həmin məqam barədə Zelenskiyə bildiriləcək.

Bildiyimiz kimi, qlobal böhran təkcə Ukraynanı, Rusiyanı və Türkiyəni yox, bütün dünyanı narahat edən məsələdir. Bu baxımdan, görüşdə məhz qlobal böhranın da müzakirəsi təəccüb doğura bilməz. Eyni zamanda, görüşün formatı belə qlobal böhranın aradan qaldırılmasında Türkiyənin rolunun nə dərəcədə çox olduğunu təsdiqləyən məqamdır. Ukrayna taxıl istehsalçısı kimi məhsulunu ixrac edə bilmir və belə bir vəziyyətdə istər humanitar dəhlizin açılması olsun, istərsə də taxıl böhranı ilə bağlı məsələlərin həlli yollarının müzakirə edilməsi olsun, bütün bunlar müzakirəsi gözlənilən məsələlərdir.Zelenski yaxşı bilir ki, Ərdoğanın istər müharibəni sonlandırmaq, eləcə də taxıl böhranının həlli yollarının tapılması üçün humanitar dəhliz barədə razılıq əldə etmək imkanları, potensialı var. Əbəs yerə deyil ki, Zelenski bir növ Ərdoğanı ümid yeri olaraq qəbul edir. Hətta onu da demək olar ki, Zelenski Türkiyə liderinin imkanlarını, potensialını dəyərləndirir və ona inanır. Məhz bu inamın fonunda Ukrayna prezidentinin bu dəfə Türkiyə prezidentini ümid yeri olaraq görməsi də təkzib edilmir.

***İnam Hacıyev***

## "Vəziyyətin gərginləşməsi informasiya müharibəsini gücləndirə bilər"



POLİTOLOQ AÇIQLADI

"Ermənistan mətbuatı ənənəvi olaraq Azərbaycana qarşı anti-Azərbaycan siyasətini hər zaman davam etdirib. Bu siyasət bu gün də hiss olunur". Bu sözləri SİA-ya açıqlamasında Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib.

Onun sözlərinə görə, xüsusilə son dövrlər baş verən proseslər fonunda biz bunu aydın müşahidə edə bilirik: "Əlbəttə ki, bunun iki səbəbi var. Birincisi, ölkə daxilində mövcud olan revanşist qüvvələrin bu işdə əlinin olması qaçılmazdır. İkincisi isə, xarici güclərin Ermənistanda olan dayaqlarının da burada rolu böyükdür. Həmin qüvvələr Ermənistan mətbuatını manipulyasiya edərək Azərbaycana qarşı dezinformasiyaların yayılmasında maraqlı olduqlarını göstərirlər.

Məsələ burasındadır ki, Azərbaycan son dövrlər Ermənistana çağırış edərək sülh və sabitlik məsələsini müzakirə etməyi təklif edib. Azərbaycan tərəfi dialoqun qurulmasını və gələcəkdə regionda, ümumiyyətlə bölgədə sülhün əldə edilməsi üçün addımların atılmasını tələb edib. Bütün bunların fonunda görünən mənzərə ondan ibarətdir ki, həm dövlətin əlində olan media resursları, həm də xarici güclərin imkanları ilə formalaşan media resursları Azərbaycana qarşı dezinformasiyaları daha da gücləndirirlər. Bu da Azərbaycan ilə Ermənistan arasındakı vəziyyəti daha da gərginləşdirir. Düşünürəm ki, Ermənistan tərəfi əvvəlcə bu təxribatçı əməllərindən əl çəkməlidirlər. Əks halda proseslər çıxılmaz bir hal ala bilər. Bu da nəticə etibarilə tərəflər arasındakı informasiya müharibəsini daha da gücləndirə bilər".

***Arzu Qurbanlı***

## Vergi daxilolmalarının artmasının əsas səbəbi nələrdir?



İQTİSADÇI İZAH ETDİ

Vergi siyasətinin əsaslı şəkildə həyata keçirilməsi, kadr potensialının düzgün yerləşdirilməsi, onun təhsil səviyyəsinin yüksəldilməsi, təkmilləşdirilməsi bu uğurların əldə edilməsinə imkan verir. Bu gün həyata keçirilən vergi siyasəti ölkənin iqtisadiyyatının güclənməsində və qüdrətlənməsində, onun təhlükəsizliyinin təmin edilməsində böyük rola malikdir. Eləcə də son zamanlar vergi daxilolmalarındakı artım ictimaiyyətin diqqət mərkəzindədir. Bəs, vergi daxilolmalarının artmasının əsas səbəbləri nələrdir?İqtisadçı ekspert Xalid Kərimli SİA-ya açıqlamasında bildirib ki, vergi daxilolmalarının artmasının əsas səbəbi inflyasiyadır: "Yəni inflyasiyanın yüksək olması məğləb ifadəsində vergi daxilolmalarının daha yüksək göstərməsinə gətirib çıxardır. Məsələn, bir məhsulu əvvəl 10 manata alırdıqsa, indi isə 15 manata alırıq. 15 manatın əlavə dəyər vergisi 10 manatın əlavə dəyər vergisindən daha çoxdur.Xalid Kərimli fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ikinci əsas səbəb isə pandemiyadan sonra iqtisadiyyatın tədricən bərpa olunmasıdır: "Yeni iqtisadi aktivliyin artmasıdır. Üçüncüsü isə vergi inzibatçılığının təkmilləşdirilməsidir. Həmçinin minimum əmək haqqının artması da prosesdə mühüm rol oynayır".

***Arzu Qurbanlı***

## Gənclər "Bakcell"in dəstəyilə öz biznesini quracaq




Bakcell şirkəti "SOS Uşaq Kəndləri Azərbaycan" assosiasiyasının himayəsində yaşayan gənclərin iş imkanları və sahibkarlıq bacarıqlarının artırılmasına yönəlmiş növbəti layihəyə dəstək göstərib.

Layihənin əsas məqsədi valideyn himayəsindən məhrum olmuş gənclərin sosial sahibkarlıq bacarıqlarının artırılması vasitəsilə əmək bazarına inteqrasiyasının təmin edilməslidir.

Layihədə iştirak etmək istəyən gənclər 6 komandaya bölünərək "Komandanın qurulması" ("Team building"), "Gənclərin iştirakçılığı" və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri mövzularında təlim və seminarlarda iştirak edib. Qusar rayonunda "Sosial sahibkarlıq və biznesin qurulması" mövzusunda keçirilən 5 günlük düşərgədə gənclərə sosial sahibkarlıqla bağlı bilik və bacarıqlarını artırmaq üçün imkanlar yaradılıb. Növbəti mərhələdə onlar mentorların dəstəyilə öz biznes layihələrini hazırlayıb münsiflər heyətinə təqdim edəcək. Qalib elan olunan sosial sahibkarlıq layihələrini reallaşdırmaq üçün gənclərə maliyyə vəsaiti ayrılacaq. Xatırladaq ki, Bakcell 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir. Bu əməkdaşlıq çərçivəsində Assosiasiyanın himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə həyata keçirilən "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyası üzrə "Milli KSM Mükafatı 2018? mükafatına layiq görülüb.

# Bəşəriyyətin nüvə dərdi



Məşhur rus alimi Mendeleyevin tərtib etdiyi dövri sistemdə 110-dan çox kimyəvi elementin adı var. Onların təbiətdə demək olar ki, 50 faizi geniş yayılıb. Qalanları isə sadəcə var və ümumi ad ilə "Nadir elementlər" adlandırılır. Nadir element dedikdə, yer qabığında miqdarı adi elementlərdən xeyli az olan və xassələrinin lazımi dərəcədə öyrənilməməsi ilə əlaqədar olaraq, tətbiqi məhdud çərçivədə olan elementlər nəzərdə tutulur. Uran da təbiətdə var, mövcud izotopları arasında Uran-338 ən sabiti hesab olunur.Mənbələrdən oxuyuruq: Bölünmə termini, parçalanma və yaxud materiyanın dağılması kimi məna kəsb edir. Nüvənin parçalanması prosesində atom nüvəsinin xırda nüvələrə və digər elementlərə parçalanması baş verir. Belə proseslər çoxlu sayda digər elementlərə xas olan əlamətdir. Atom elektrik stansiyaları üçün xammal olan U-235 nəzəri cəhətdən hesablanmış xüsusi normativlər üzrə parçalanma reaksiyası həyata keçirir və bu məcburi parçalanma adlanır. U-235-in bölünməsinin əsası onu yüksək sürətli neytronlarla bombardıman etməkdir. Neytron U-235-in nüvəsinə ani sürətlə daxil olduqda, o, kiçik vaxt ərzində iki yüngül nüvəyə parçalanır. Bu halda qamma şüalarla birlikdə iki-üç neytron ayrılır. Qamma şüalar rentgen şüalara bənzər olsa da, yüksək nüfuzetmə gücünə və enerjiyə malikdir. Bundan əlavə nüvənin parçalanması zamanı istilik enejisi də əmələ gəlir ki, o da öz növbəsində uranın qızdırılmasına sərf olunur. Parçalanma nəticəsində ayrılan neytronlardan biri, növbəti uran nüvəsinə nüfuz etdikdə o da əvvəlki qayda ilə parçalanır və bu proses təkrarlanır. Əgər uran-235 kifayət qədər çoxdursa, nüvənin parçalanması və daxili neytron bombardımanı nəticəsində zənzirvari raeaksiyaya yarana bilər. Sonra isə əgər zəncirvari reaksiya uzun müddət davam edirsə bütün uran-235-in ehtiyatı daha yüngül elementlərə (işlənmiş nüvə yanacağına) çevrilmiş olur.Bəli, Uran elementi neytronların "hücumundan" sonra bölünür və yüksək enerji əmələ gəlir. Bəs təbiətdə mövcud olan, lakin kəşv edilənə qədər bəşəriyyətə, insanlığa heç bir zərəri olmayan bu element niyə bu günümüzün ən dağıdıcı kimyəvi varlığına çevrilib? Bu sualın cavabı asandır. Sirr deyil ki, təbiətin bu nadir elementinin dağıdıcı, təhlükəli hala gəlməsinin səbəbkarı insanlardır. Dünya bu enerjidən müxtəlif məqsədlər üçün istifadə edir. Ağıllı başlar nüvə enerjisindən sülh məqsədləri üçün, yəni elektrik enerjisi əldə etmək üçün, digərləri isə dünyanın bir kəsimini, daha doğrusu bəşəriyyəti məhv etmək üçün istifadə edir. Bir az da dəqiqləşdirsək nüvə silahı əldə edir. Bu gün dünyanın iri dövlətləri nüvə silahına malikdir. ABŞ, Rusiya, Çin, Fransa, İngiltərə və digər ölkələr dünyada mövcud nüvə silahlarının əksəriyyətinə sahibdirlər. Dəhşətli burasıdır ki, həmin nüvə arsenalının saxlanmasına, ona xidmət göstərilməsinə, "yağını-suyunu dəyişməyə" hər il 80 milyard dollar vəsait xərclənir. Halbuki bəşəriyyəti məhv edəcək bu silahlara xərclənən vəsait digər sahələrə yönəndirilsə dünyanın problemləri xeyli azalar, ərzaq qıtlığı başımızın üstünü kəsməz, aclıq yaranmaz, su qıtlığı olmaz.Alimlər irimiqyaslı nüvə müharibəsinin bir neçə ssenarisini hesablayıblar və müəyyən ediblər ki, qitələrin birində ABŞ və Rusiya arasında nüvə müharibəsinin ən pis vəziyyətində belə insanlar aclıqdan ölməyəcək. Əslində, dünya alimlərinin və elminin yekdil fikrinə görə, kifayət qədər böyük asteroidin düşməsi, Yellowstone tipli vulkanın püskürməsi zamanı və nüvə müharibəsindən sonra hamımızı eyni hadisə gözləyir. Bu halların heç birində ən dəhşətlisi göydən düşən daşın özü deyil, isti lava axınları və partlayışlardan gələn şok dalğaları deyil və radiasiya da deyil. Ən pisi tüstüdür.Alimlər buna misal olaraq 66 milyon il əvvəl dinozavrların nəyin öldürdüyünü göstərirlər. Əsas versiyaya görə, daha sonra 10-15 kilometr diametrli asteroid Yerə çırpılıb və buna görə də Meksikanın Yukatan yarımadasında diametri 180 kilometr və dərinliyi təxminən 20 kilometr olan Çikxulub krateri hələ də qorunub saxlanılır. Tədqiqatçılar hesab edirlər ki, stratosferə qədər qalxan his fəlakətə çevrilib. O, bütün planeti keçilməz pərdəyə bürüyüb və bir il yarım ərzində dünyada gecə-gündüz qaranlıq hökm sürüb. Beləliklə, bitki və heyvanların kütləvi baş verib.Təxminən eyni şeyi atom müharibəsi zamanı elm də nəzərdə tutur. Beynəlxalq tədqiqatçılar qrupu bu yaxınlarda altı müxtəlif nüvə münaqişəsi ssenarisinin nəticələrini hesablayıb. Onlar fəlakətin miqyasına görə fərqlənirlər. Məsələn, Hindistanla Pakistan arasında nüvə müharibəsi baş verərsə, yüzə yaxın atom partlayışı gözləmək olar və bu, atmosferə beş milyon tona yaxın bərk hissəciklərin buraxılması deməkdir. Müharibə zamanı planetə 250 nüvə yükü düşərsə hava 27 milyon ton hisi planetin bir ucundan digərinə daşıyacaq. Tədqiq olunan variantlardan ən dəhşətlisi isə ABŞ və Rusiya arasında nüvə müharibəsidir: 150 milyon ton emissiya -toz dumanı.Kompüter simulyasiyaları yaxın 15 ildə bütün hallarda nə olacağını göstərib, məlum olub ki, ümumiyyətlə, eyni şey yalnız fərqli miqyasda baş verəcək, yəni, planetin səthinə daha az günəş işığı çatacaq, Yerdəki temperatur kəskin şəkildə aşağı düşəcək və bununla da qida məhsulunun tədarükü mümkünsüz olacaq, beynəlxalq ticarət dayanacaq. Çox güman ki, insanlar heyvandarlıqla məşğul olmaqdan əl çəkəcək, yemi özləri yeyəcəklər. Bununla belə, alimlər üç variantı nəzərdən keçiriblər: maldarlığın eyni səviyyədə saxlanması, qismən dayandırılması və heyvandarlığın tamamilə dayandırılması. ABŞ və Rusiya arasında toqquşma halında heç bir plan işə yaramayacaq, çünki hansısa addımın atılmasına sadəcə vaxtımız qalmayacaq.Amma dünya xəritəsində elə yer var ki, elmi proqnozlara görə, hətta pik vəziyyətdə belə insanlar nəinki aclıqdan ölməyəcək, hətta qida çatışmazlığı belə onları təhdid etməyəcək. Bu Avstraliya və Yeni Zelandiyadır. Alimlərin fikrincə, "Yaşıl Qitə" buğda hesabına sağ qalacaq, bu, avstraliyalıların əsas kənd təsərrüfatı məhsuludur. Onlar onu 20 milyon tondan çox həcmdə yetişdirirlər ki, bunun da yarısı ixrac olunur. Nüvə müharibəsi olarsa, təbii ki, məhsul istehsalı minimum enəcək, amma ixrac da olmayacaq. Bu o deməkdir ki, bu məhsullar yarıya düşsə belə, özlərinə kifayət edəcək. Eyni zamanda, alimlər etiraf edirlər ki, bu hesablamalar çox gözlənilən bir amili nəzərə almır: Avrasiyadan və ümumiyyətlə, mümkün olan hər yerdən qaçqın axını, şübhəsiz ki, Avstraliyaya töküləcək. Müvafiq olaraq, daha çox insanın özünü qidalandırması lazım olacaq.Əslində, belə çıxır ki, Amerika Rusiyaya qarşı genişmiqyaslı müharibədə qətiyyən maraqlı deyil. Əgər vəzifə qarşı tərəfə - Rusiyaya zərər verməkdirsə, o zaman Avrasiyada ən böyük olmayan hansısa münaqişənin qızışdırılmasına töhfə vermək strateji baxımdan daha sərfəlidir.Bu arada məlum olub ki, Rusiya Belarusa nüvə başlığı daşıya bilən raket sistemləri verməyə hazırlaşır. Beləliklə, Moskva NATO kimi öz müttəfiqlərini nüvə qüvvələri ilə əhatə edə biləcəyinə dair siqnal verir. Rusiya-Ukrayna silahlı münaqişəsi nüvə həddini aşağı salıb və Moskva hərbi əməliyyatlar zamanı nüvə silahının mümkün istifadəsinə dair təhdidlərini davam etdirir. İyun ayında bu hədd daha da aşağı düşə bilərdi, çünki Rusiya keçmiş sovet respublikasına, indi onun müttəfiqi Belarusa tezliklə onu nüvə silahına malik "İsgəndər" raket sistemləri ilə təmin edəcəyinə söz vermişdi."İsgəndər" operativ-taktiki nüvə silahı olduğu üçün bu, vəziyyəti sabitliyi poza bilər. Bundan əlavə, Rusiya Belarusa nüvə silahı daşıya bilməsi üçün Su-25 hücum təyyarələri parkını modernləşdirməyə kömək etməyi təklif edib. Moskva Minskə nüvə təhlükəsizliyinə zəmanət verməyə və strateji sabitliyi təhlükəyə atmağa hazırdırmı?"İsgəndər" təklifi ilə bağlı xəbərlər efirə çıxanda Kremlin sözçüsü Dmitri Peskov izah etdi ki, Rusiyanın Belarusa ötürmək niyyətində olduğu sistemlər nüvə silahı daşıya bilər, lakin onların onları alacağı dəqiq deyil. Bu, yeni bir şey deyil, məsələn, Çin DF-21 kimi nüvə qabiliyyətli raket sistemlərini Səudiyyə Ərəbistanına satıb və əvvəllər onları yalnız adi döyüş başlığı daşıya biləcək şəkildə modifikasiya edib.Hələlik Rusiyanın Belarusa çatdırılmadan əvvəl öz "İskəndər"lərini modifikasiya etmək niyyətində olub-olmadığı barədə məlumat yoxdur. Lakin Rusiya hərbi komandanlığına tabe olmayan nüvə təchizatlı sistemlərin mümkün yerləşdirilməsi ilə bağlı bəyanatlar çox şişirdilib. Bundan əlavə, Minskə təhvil verilməsi planlaşdırılan və nüvə yükü daşıya bilən sistemlər daha çox NATO üçün qeyri-nüvə təhlükəsi yaradır, çünki Belarusun onları təchiz etmək üçün nüvə başlıqları yoxdur.Ukrayna böhranı zamanı Belarusun Rusiyaya mühüm logistik dəstək verdiyi şübhəsizdir. Fevral ayında, xüsusi əməliyyatın başlamasına cəmi bir neçə həftə qalanda Rusiya və Belarus Belarus-Ukrayna sərhədində birgə təlimlər keçirib. Bu manevrlər zamanı Rusiya S-400 zenit-raket komplekslərini tam hazır vəziyyətə gətirib. O vaxtdan bəri bu buraxılış qurğuları Ukraynaya zərbə endirmək üçün Belarusda olub. 2022-ci ilin mayında Minsk Ukraynanı öz ərazisində cavab zərbələrindən çəkindirmək üçün Rusiyadan "İsgəndər" və S-400 komplekslərini almağı planlaşdırdığını açıqladı.Belarus prezidenti Aleksandr Lukaşenko S-400 və "İsgəndər"lərin alınmasını elan edərkən Qərbi "nasizmi dövlət ideologiyası səviyyəsinə qaldırmaqda" ittiham edib. Bu, Qərbin Ukraynaya qarşı hərbi əməliyyatda iştirakına görə Rusiya və Belarusa qarşı tətbiq etdiyi sanksiyalara cavab idi. Qərb Ukraynanı müdafiə əməliyyatları üçün müasir artilleriya sistemləri ilə təmin edib. Rusiyanın 6 təyyarəsi Belarus ərazisindən Kiyev, Çerniqov və Sumı vilayətlərinə 12 raket atıb.Aydındır ki, Belarus münaqişə zamanı Moskvanı dəstəkləmək üçün möhkəm hücum və müdafiə imkanları əldə etmək istəyəcək. Lukaşenko artıq Putindən xahiş edib ki, bu sistemlər "simmetrik cavab" verə bilər. Amma hələlik Qərb Rusiya ilə heç bir nüvə toqquşmasına cəsarət etmir, ona görə də burada simmetriya yalnız qeyri-nüvə xarakterli ola bilər.Fevral ayında Rusiya prezidenti Vladimir Putin hədələmişdi ki, Qərb Rusiyanın başçılıq etdiyi "xüsusi hərbi əməliyyata" müdaxilə edərsə, bunun nəticələri "bütün tarixinizdə heç vaxt görmədiyiniz kimi" olacaq. Buna görə də Rusiya nüvə qüvvələrini yüksək hazırlıq vəziyyətinə salıb.Belarus Ukraynadakı hərbi əməliyyatında Rusiyaya dəstək verdiyindən və rus qoşunlarına onun ərazisindən hücum zərbələri endirməsinə icazə verdiyindən, Ukraynanın cavab zərbələri endirmə ehtimalı var. Lakin Belarusun özü hərbi əməliyyatlarda birbaşa iştirak etmir və ruslarla yanaşı döyüşmək üçün öz qoşunlarını Ukraynaya göndərmir. Minsk öz ərazisində nüvə silahının yerləşdirilməsinə icazə verməklə strateji sabitliyə xələl gətirmək istəməyəcək.Fevralda Lukaşenko ölkəsində nüvə silahının yerləşdirilməsi ehtimalını rədd edərək demişdi: "Əgər Belarus xalqı təhlükə ilə üzləşməsə, təkcə nüvə silahı haqqında deyil, həm də adi silahlardan söhbət gedə bilməz". Lakin 2016-cı ildə o, Belarusun yerüstü raket bölmələrini adi texnikada modernləşdirmək və onları düşmən silahları üçün etibarlı və əlçatmaz sistemlə təchiz etmək üçün "İsgəndər" raketlərini almaq istəyib.Rusiya Belarusa nüvə başlığı daşıya bilən raket sistemləri verməyə hazırdır. Beləliklə, Moskva siqnal göndərir ki, NATO kimi müttəfiqlərini nüvə çətirini onların üzərində yerləşdirməklə öz nüvə qüvvələri ilə əhatə edə bilər. Və bu halda Belarus uzaq mənzilli sistemlər alacaq və qonşu NATO ölkələrini daha etibarlı və inamla çəkindirə biləcək. Beləliklə, bu, Moskva və Minsk üçün qarşılıqlı faydalı vəziyyətdir.Bəli, dünya Uran elementinin zəncirvari reaksiyasından alınan enerjinin təhdidi altındadır. İmkanı çatan nüvə dilində danışır, qarşısındakını gözlə görünməyən neytron yağışı ilə hədələyir. Səbəb də çox bəsitdir. Şünki indiki insanları güllə, top mərmisi, raketlərin canavar ulartısına bənzər səsi ilə qorxutmaq dövrü çoxdan keçib. Ukraynada hər gün yerə səpələnən güllə-mərmi yağışının sayı-hesabı yoxdur, amma müharibə bitmir. Dünən güllə səsindən diksinənlər bu gün top səsinə oyanmırlar. Dünyanın qulağı bu səsə o qədər alışıb ki   Qarşıda nüvə təhlükəsi var. O silahı birinci kim atacaq, o da bəlli deyil. Amma əli tətikdə olan ölkələr də az deyil.

**V.VƏLİYEV**

# Turistlər üçün zəngin məkan: Qarabağ torpağı

Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər turizm sahəsinin inkişafında da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan turizmin inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülüb. Ölkəmizin qeyri-neft sahələri arasında prioritet mövqelərdən birini tutan turizm sənayesinin inkişafı üçün Azərbaycan özünəməxsus resurslara və potensiala malikdir. Sözügedən sahə üzrə bu günə qədər həyata keçirilən dövlət proqramları və digər normativ-hüquqi sənədlər ölkənin turizm sahəsində əsas inkişaf prioritetləri, perspektivləri və problemlərin həlli istiqamətində atılan mühüm addımlar olmuşdur. Görülən işlər ölkəmizə marağı artırmış və çoxsaylı insanların turist olaraq Azərbaycanı istirahət üçün seçməsinə səbəb olub. Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri də ölkədə keçirilən beynəlxalq tədbirlər, konfranslar, simpozimlar və müxtəlif görüşlərdir. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması istiqamətində uğurlar sırasındadır.





Turizmin qloballaşması müasir dövrün reallığıdır. Turizmin təşkilinə üstünlük verən ölkələr dünyanı tam şəkildə qəbul edir, onun hər yerində sülhün və əmin-amanlığın qorunmasına çalışırlar. Çünki müharibələr, münaqişələr və terror hadisələri turizmin inkişafına mane olan ən başlıca amillərdir. Bu gün ölkəmizdəki sabitlik, əmin-amanlıq turizmin də inkişafında önəmli faktorlardan biridir.

Coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Təbii ki, Azərbaycanda turizm sahəsində dövlət siyasəti turizmin gələcək inkişafı üçün onun əsas prioritetlərini müəyyən edir.

## AZƏRBAYCANIN ÇOXƏSRLİK TARİXİNİ ÖZÜNDƏ YAŞADAN ABİDƏLƏR

Azərbaycanda ötən 19 il ərzində turizm sektorunun inkişafına yönəlmiş dövlət proqramları, bu sahəyə yatırılan investisiyalar, xidmət sektorunun inkişafı və regionlarda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması nəticəsində turizmin inkişafına perspektivlər açıb. Görülən tədbirlər şaxəli və fərqlidir. Bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durur.

Müxtəlif sahələrlə yanaşı, ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi də hazırlanıb. Qeyri-neft sektorunun inkişafında turizm sahəsinin xüsusi çəkisi var. Prezident İlham Əliyevin Ağsu və İsmayıllıya səfəri çərçivəsində də turizm obyektinin açılışı, Azərbaycanın çoxəsrlik tarixini özündə əks etdirən abidələrin bərpası turizm potensialının yaradılmasıdır. "Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq", - deyən Azərbaycan Prezidenti qeyd edib ki, həm Azərbaycan vətəndaşları, həm ölkəmizdə olan qonaqlar, bildiyiniz kimi, indi Lahıca durmadan səfərlər edirlər: "Əminəm ki, eyni aqibət Basqal qəsəbəsi üçün də olacaq. Bu məqsədlə bu tarixi yaşayış yerinin konservasiyası, bunun tarixi simasının qorunması xüsusi əhəmiyyət daşıyır."

## QARABAĞIN TURİZM İMKANLARINA VURULAN ZƏRBƏ

Azad olunmuş ərazilərimizdə qısa müddətdə müasir infrastruktur qurulub. Belə ki, Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdış həyata keçirilib. Digər yaşayış məntəqələrimizin yenidən qurulması və bərpası isə davam etdirilir. Qarabağda mövcud şərait - flora və faunanın rəngarəngliyi, iqlim, istirahət üçün zəruri hesab olunan amillər daha zəngin və cəlbedicidir. Bu amillər Azərbaycanın iqtisadi potensialının daha da yüksəlməsinə müsbət təsirini göstərəcəkdir. Zəngin Qarabağ torpağı istənilən əcnəbi turistin marağından kənar qala bilməz. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər 30 ilə yaxın işğal dövründə qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi dağıdıb, bir sözlə regionun turizm infrastrukturunu tamamilə məhv ediblər. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvesiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğal dövründə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələrə zərbə vurulub. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə hazırda kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib.

Dünyanı ən nadir flora və faunası ilə zəngin olan Azərbaycan istirahət guşəsi kimi bütün imkanları özündə birləşdirir. Burada on bir iqlimdən doqquzunun mövcudluğu Azərbaycanın həqiqətən də cənnət beşiyi olduğunu əsaslandıran amildir ki, ta qədimdən bu günə kimi tarixi sərvətləri ilə ölkəmizin qonağı olan insanların marağına səbəb olmuşdur.

Qarabağ torpağının işğal dövründə təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayon ərazisinə yaxın olan Azıx və Tağlar mağaraları dünya tarixinin qədim abidəsi kimi YUNESKO-nun siyahısına düşmüşdür. Rayonun ən böyük meşələrdən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.



Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətmələri də hər kəsin xatirindədir. "Leşkar" meşə sahəsində isə yararlı ağaclar tam qırılıb. Buna Azərbaycan iqtisadi gücü, potensialı var. Xatırladaq ki, Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş çüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində 30 ilə yaxın qalması Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurmuşdur. İşğal dövründə ermənilər bu xəzinədən vəhşicəsinə istifadə etmişdirlər. Cənnətməkan hesab olunan ərazilərimizi xarabalığa çevirən ermənlər yaxın bir zamanda buranın əvvəlkinən də gözəl bir məkan olacağının şahidi olacaqlar. Öz milli xüsusiyyət və tələbatlar çərçivəsində bu məkanlarda ab-hava yaradaraq Qarabağı turistlərin ən çox maraq göstərdiyi bir mərkəzə çevirəcəyik.

## ŞƏRQ MÜHİTİ VƏ KOLORİTİ

Əlbəttə ki, hər bir bölgənin özünəməxsusluğu, cazibiliyi var. Elə Böyük Qafqazın Şahdağının şimal-şərq yamaclarında, Qudyalçayın sahilində yerləşən Quba kimi. Əbəs deyil ki, bu rayon turistlərin ən sevimli yerlərindən birinə çevrilib. Mətbəxi, ənənəvi yaşayış tərzinə sadiqliyi, ailə dəyərləri, koloriti və əsl Şərq mühiti ilə fərqlənən Quba turizm potensialı ilə fərqli və zəngindir. Qubaya gələn turistlər rayonun tarix və mədəniyyət abidələrinə biganə qala bilmirlər. Əlbəttə ki, son illər ölkəmizin hər bir yerində olduğu kimi, Quba rayonunda da yaradılmış infrastruktur turizmin inkişafına təkan vermişdir. Kənd yollarının yenidən qurulması turizmin inkişafı deməkdir. Rustov-Xanəgah-Girdəh, Rustov-Növdün-Şuduq, Rustov-Məcgə xacə, Rustov-Baxçalı-Yekdar avtomobil yolunun istifadəyə verilməsi yeni turizm istiqamətinin açılmasına səbəb olmuşdur. Rayon mərkəzindən 58 kilometr məsafədə, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıq özünəməxsusluğu ilə marağa səbəb olur. Hündürlüyü 75-80 metrə çatan əzəmətli "Afurca şəlaləsi"nə də üz tutanların sayı çoxdur. Şəlaləni görmək istəyənlər məşhur "Təngə dərəsi"ndən də keçməli olurlar. Xınalıq kəndində Qudyalçay üzərindəki Tağlı körpü, eləcə də Avropanın ən uca dağ kəndi sayılan IX əsrə aid Atəşpərəstlər məbədi mühafizə olunur.

Xınalıq qoruq elan edildiyi üçün burada yeni binaların tikintisi qadağandır. Bu gün Xınalığa çoxlu turist gəlir. Hər il yenidən bura gələn almanlar, hollandlar, fransızlar, amerikalılar Xınalıq dilini öyrənməyə cəhd edirlər. Rəvayətlərə görə xınalıqlılar Nuh peyğəmbərin danışdığı dildə danışırlar. Xınalıqlılar özləri də bunu inkar etmir. Bir neçə alimdilşünas Xınalıq dilinin tədqiqi ilə məşğul olmuş, Xınalıq dili haqqında bir neçə elmi kitab nəşr olunub.

Turistlərin Qubadakı təbiət abidələrinə də marağı böyükdür. Rayon ərazisində 60-dan çox təbiət abidəsi mövcuddur. "Xan bulağı", "Ağacda ev", "Atəşgah", "Cəfər dərəsi", "Minarə", "Xaşı istisuyu", "Sona bulağı" kimi təbiət abidələrinə maraq çoxdur. Memarlıq abidələrindən Ağbil türbələri, Alpan kəndində Subaba türbəsi, Birinci Nügədi kəndində məscid və minarə, Hacı Cəfər və Cümə məscidləri, Gümbəzli hamam vardır. Bundan başqa Rustov kəndində "Ələmu" adlı qala və tarixi məsciddə yerləşir.

Bu abidələr sırasında XIX əsrə aid Səkinəxanım məscididir. XIX əsrə aid bu məscidin spesifik xüsusiyyəti qadın adı daşımasıdır. Məscid öz monumentallığı ilə insanları heyrətə gətirir. Doqquz günbəzli məscid binasının hündürlüyü 27 metrdir. O, qırmızı kərpicdən tikilib və tilli silindri xatırladır. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra məscid bərpa edilib və yenidən dini ibadətgah kimi istifadəyə verilib.

Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan "Rixos Quba Azərbaycan" otelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstərilir. Dünya standartlarına cavab verən mərkəzlərdən biri Quba Olimpiya Kompleksidir ki, burada müasir səviyyəli idman zalları inşa edilib. Böyük futbol, mini futbol, basketbol, voleybol, tennis, üzgüçülük meydançaları var. Kompleksdə qonaqlara Avropa standartlarına cavab verən şəkildə xidmət olunur. "Nazlı bulaq" istirahət mərkəzi, "Məst Dərgah" istirahət mərkəzi, "Bərpa SPA" Mərkəzi, "Oskar" oteli və digər mərkəzlər müasir standartlara cavab verir.

Ölkəmizin hər bir bölgəsinin belə turizm imkanları vardır. Ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Azərbaycanda turizmin inkişaf etdirilməsi üçün ölkənin zəngin coğrafi landşafta, flora və faunaya malikliyi əsas şərtlərdəndir. Zəngin mədəni, tarixi irsə və əlverişli təbii şəraitə malik Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İdeyalarımızı necə inkişaf etdirməliyik

**İdeya yaratmaq, yeni fikir irəli sürmək bəziləri üçün vərdişdir. Çevikliklə birdən çox insanın bir araya gəlib kollektiv beyinlə fikirlər çıxarmasına zəmin hazırlamaq və vəziyyəti asanlaşdırmaq üçün bir çox texnika var.Yaradıcılıq insanların müəyyən mənada yeni və dəyərli ideyalar irəli sürmək bacarığıdır. Yaradıcılıq insan beyninin sağ lobu tərəfindən əlaqələndirilən bir xüsusiyyətdir və şəxslərə irsi yolla ötürülə bilər.Yaradıcı insan orijinal olmalı, səhv etməkdən qorxmamalı, pozitiv düşünməli, azad olmalı və özünü sevməlidir. Bu insanlar praktik zəkaya malik olmalı, baxış bucağı, xəyalları məhdud olmamalıdır, qərəzlərdən uzaq olmalıdır. Həmçinin, problem həll etmə qabiliyyəti də olmalıdır.Müasir dünyada bir çox insanlar yaradıcılığı fitri istedad kimi təsvir etsələr də, bu, əslində öyrənilən və sonradan dəyişdirilə və inkişaf etdirilə bilən bir şeydir.**

## Yaradıcı olmaq nə deməkdir?

Yaratmaq və ya yaradıcı olmaq qabiliyyətinə malik olmaq kimi ifadə edilir. Eyni zamanda zəka, düşüncə və təxəyyüldən istifadə edərək yeni bir şey üzə çıxarmaq yaradıcı olmaq kimi ifadə edilir.

Yaradıcılığınızı inkişaf etdirməyin 7 yolu:

1. Düzgün suallar verməklə problemləri yenidən müəyyənləşdirin.
2.Müxtəlif fikirləri birləşdirin.
3. İlk tapdığınız həll yolu ilə ilişib qalmayın.
4. Ehtiyatlı olun
5. Ətrafınızı yaradıcı insanlarla doldurun.
6. Özünüz üçün maneələr qoyun.
7. Təcrübə qazanın.

Bəs, yeni ideyalar irəli sürmək üçün nə etmək lazımdır? Sosial marketinq nədir? İdeyadan necə pul qazanmaq olar? Yaxud ideyaları necə satmaq olar? Ümumiyyətlə, hansı ideyalar insanların marağına səbəb ola bilər? S?A mövzu ilə bağlı araşdırma apararaq sosioloq, marketoloq və mütə-



xəssislərin fikirlərini öyrənib.

**İnk academy şirkətinin təsisçisi, marketoloq Orxan Salmanov:** "Sosial marketinq brendə birbaşa fayda gətirmək üçün deyil, sosial dəyişiklik yaratmaq üçün nəzərdə tutulmuş marketinqdir. Ənənəvi marketinq üsullarından istifadə edərək, müəyyən bir problem və ya səbəb haqqında məlumatlılığı artırır və auditoriyanı davranışlarını dəyişməyə inandırmaq məqsədi daşıyır.Belə ki, sosial marketinq istənilən dəyişikliyi yaratmaq üçün məhsul satmaq əvəzinə cəmiyyətə fayda verən davranış və ya həyat tərzini "satır". İctimai rifah üçün bu fayda həmişə əsas diqqət mərkəzindədir. Bir məhsulun rəqib məhsullardan necə daha yaxşı olduğunu göstərmək əvəzinə, sosial marketinq arzuolunmaz fikirlər, davranışlar və ya hərəkətlərlə "rəqabət edir".

Sosial marketinq adətən aşağıdakı mövzular üçün istifadə olunur:

Siqaret və Narkotik əleyhinə;
İdman və sağlam qidalanmanın təşviqi;
Yol hərəkəti qəzalarının azaldılması;
Meşələrin qırılmasına qarşı;
Təbiəti təmiz saxlama;
İrqi, Dini və s. bərabərsizlik yaradan hallara qarşı.

Bu layihələri adətən QHTlər, Dövlət qurumları, Xeyriyyə təşkilatları və s. həyata keçirir. Adətən Kommersiya məqsədli fəaliyyət göstərən şirkətlər sosial marketinqə o qədər də maraqlı olmurlar. Bəzi istisna hallarda Korporativ Sosial Məsuliyyət daxilində böyük korporasiyalar da sosial marketinq layihələri həyata keçirməklə yadda qalmağa çalışırlar.Sosial Marketinq ideyaları adətən kreativlik, fərqli baxış tələb edir. Bunun üçün adətən qurumlar fərqli agentliklərlə çalışır, kreativ şəxslərdən bu cür ideyaları alırlar. Bu, o demək deyil ki, sizin maraqlı sosial marketinq ideyanız varsa rahatlıqla sata biləcəksiniz. Siz bir çox proseslərdən keçməli, ideyanızı satma və alacaq adamları inandırmağı bacarmalısınız. Dünyada bir çox uğurlu nümunələr görə bilərik ki, bu sosial marketinq ideyaları ilə milyonlarla insanlara lazım olan mesaj verilib.Sosial marketinqi bir çox adamlar Sosial media marketinqlə qarışdıra bilərlər. Amma bunlar təmamilə ayrı mövzular və ayrı istiqamətlərdir. Ümid edirəm ki, dünya o qədər gözəlləşəcək ki, Sosial marketinqə ehtiyac qalmayacaq".

*Ardı Səh. 14*



# İdeyalarımızı necə inkişaf etdirməliyik?

Əvvəli Səh. 13

**Layihələrin idarə edilməsi üzrə mütəxəssis Fatma Qurbanova:** ""Sosial bir layihə ideyam və ya icra etdi-



yim layihəm var, maliyyəni necə cəlb edə bilərəm?" sualı istər əyani, istərsə də, onlayn formada ən çox aldığım suallar arasında yer alır. Bu gün sizinlə sosial layihələr üçün maliyyə cəlbi fürsətlərindən danışacağıq.

Qeyd edim ki, hansı maliyyə cəlbi formasını seçmək həm ideyadan, həm tələb olunan büdcədən, həm də sizin real şəraitinizdən asılı olaraq dəyişir. O səbəbdən də, bütün qurum və təşkilatlardakı fürsətləri yaxşıca araşdırmağınızı tövsiyə edirəm.Sosial layihənizi aşağıdakı fürsətlər çərçivəsində maliyyələşdirə bilərsiniz:

- Azərbaycan Respublikasının Nazirlikləri, Gənclər Fondu, QHT-lərə Dövlət Dəstəyi Agentliyi, KOBİA kimi dövlət qurumları tərəfindən elan edilən qrant müsabiqələri çərçivəsində.

- Dünya ölkələrinin Azərbaycandakı səfirlikləri, ticarət və sənaye palataları, BMT-nin proqramları tərəfindən elan edilən qrant müsabiqələri çərçivəsində.

- Yalnız Cənubi Qafqaz ölkələri və ya bütün dünya ölkələrinə açıq formada elan edilən beynəlxalq qrant müsabiqələri çərçivəsində. Amma burada sizi daha güclü rəqabət gözləyir.

- Yerli və beynəlxalq şirkətlərin korporativ sosial məsuliyyət (KSM) siyasətləri çərçivəsindəki dəstək mexanizmləri vasitəsilə.- "Toxum.org" kimi kraudfanding platformaları və ya şəxsi profilləriniz üzərindən aparacağınız maliyyə cəlbi kampaniyaları vasitəsilə.İndi gələk əsas məsələyə, yeni bir fikir tapmaq üçün nə etməliyik?Həmişə "Niyə?" sualını verin. Cavab sizi qane etmirsə, yeni bir təklif etmək şansınız var, deməli.Baxmaq əvəzinə, görməyə çalışın. Qırmızı gödəkçə geyinmədiyiniz müddətcə ətrafdakı qırmızı gödəkçəlilərin fərqinə vara bilməyəcəyinizi unutmayın.Problemi düzgün təyin və izah edin. Hər hansı sualın bizə öyrədilləndən fərqli olaraq bir yox, bir neçə cavabı var.Hərçənd ki, "əzbər" cavab və fikirlərdən kənara çıxanda sizi sual dolu baxışlar təqib edəcək, hətta "başımıza iş açma!" cümlələri eşidəcəksiz, yenə də, siz "fərqli" düşünməkdən və fikirlərinizi irəli sürməkdən əl çəkməyin.Bu tövsiyələrin daha çoxu ilə tanış olmaq üçün "Fikir necə tapılır?" (Jack Foster) kitabını oxumağı unutmayın".

**Mütəxəssis sosial-psixoloq Naib Niftəliyev:** "Sosial marketinq Marketinqin bir sahəsi olaraq 1971-ci ildə yaranıb və bunun yaradıcısı ABŞ-ın sosial tədqiqatçısı Pliph Kotler-dir. Filip Kotler 13 mart 2014-cü ildə Q. V. Plexanov adına Rusiya İqtisad Universitetinin hörmətli doktoru dərəcəsinə layiq görülüb. Marketinq və menecment üz-



rə bir çox kitabların, eyni zamanda aparıcı jurnallarda nəşr olunan 100-dən çox məqalənin müəllifidir. Journal of Marketing tərəfindən ən yaxşı məqalə üçün təltif edilən illik Alfa Kappa Psi mükafatına üç dəfə layiq görülmüş yeganə müəllifdir. Marketinq sahəsində göstərdiyi töhfələrə görə bir çox medallara və mükafat layiq görülmüşdür. Marketinqə aid bütün bilikləri sistemləşdirməsi onun əsas töhfələrindəndir. Onun "Marketinqin əsasları" kitabı 2009-cu ildə 9-cu dəfə yenidən nəşr edildi və marketinq sahəsi üzrə əsas "ədəbiyyat"dır.Sosial marketinq dünyanın bir çox ölkələrində mövcuddur. Sosial marketinq də ideyaların cəmiyyətin maraqları və mənafelərinin uzlaşması baxımından lazımdır.Azərbaycanda sosial sahibkarlıq və sosial marketinq baxımından mühüm addımlar atılır. Bura QHT layihələri də aiddir. Sosial şəbəkələr də sosial marketinqin tərkib hissəsidir. Yeni texnologiyaların inkişafı ilə bu istiqamətdə uğur və gəlir əldə etmək olar. Həmçinin, bu vasitə ilə ideyaları daha geniş kütləyə çatdırmaq olur.Burada problemli tərəf odur ki, bəzən real ideya öz dəyərini ala bilmir. Bu baxımdan belə məsələlərdə strategiya olmalıdır.Maraqlı ideyalar daha çox yazar və jurnalistlərdən gəlir. Bu baxımdan ideya mənbəyi deyərkən həmişə fikir adamlarını axtarırlar. İnsanlar üçün həm əyləncəli, həm maarifləndirici, həm də onlara fayda verəcək ideyalar həmişə maraqlıdır".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Sosial marketinq müasir dünyada ən çox inkişaf etmiş sahələrdən biridir. Ümumiyyətlə, intellektual əməyin qiyməti bahadır. Dünyanın hər yerində (söhbət təbii ki inkişaf etmiş ölkə və dövlətlərdən gedir) intellektual fəaliyyətlə məşğul olan insanlar yaxşı yaşayırlar. Çünki onların ortaya qoyduğu intellektual məhsulun alıcısı var və onlar öz məhsullarını yüksək qiymətə sata bilirlər.Azərbaycanda ideyaların satılması və nəticədə bu yolla pul qazanmaq bir o qədər də geniş yayılmayıb. Buna görə də bu sahəyə maraq azdır. Bunun da obyektiv və subyektiv səbəbləri var.Təəssüf ki, Azərbaycanda çox adam dövlət resurslarını pul qazanmaq üçün ən yaxşı vasitə kimi görür. Buna görə də baş işlətmək, ortaya maraqlı ideya qoymaq deyil, hansısa kabinetlərdə oturmaq insanlar üçün daha cəlbedici görünür.Məsələn, çox adam ona görə vəkil tutur ki, onunla hakim arasında vasitəçilik etsin. Çox az adamın ağlına gəlir



ki, vəkil onun hüquqlarını məhkəmədə müdafiə edə bilər. Acı olsa da, reallıq belədir. Biz azərbaycanlılar nəinki ideyalardan pul qazanırıq, əslində, ümumbəşəri ideyaların bir çoxu bizim ölkəmizdə gözdən düşür, öz əhəmiyyətini, çəkisini itirir.Əslində, ideyalardan pul qazanmalı olan qurumların başında Azərbaycan Milli Elmlər Akademiyası gəlir. Çünki Azərbaycan alimlərinin böyük hissəsi Milli Elmlər Akademiyasında fəaliyyət göstərir. Amma reallıq isə budur ki, bu gün Milli Elmlər Akademiyası nəinki öz ideyalarından, kəşflərindən, ixtiralarından pul qazanır, əksinə dövlət büdcəsini sümürməklə məşğuldur.Azərbaycanda intellektual adamlara manıslar qədər hörmət və qiymət qoyulmadıqca, ideyalardan pul qazanmaq çətin olacaq. Ölkədə fəaliyyət göstərən QHT-lər öz nüfuzlarını güclə qoruyurlar. Yaxın illərdə onların ideyalardan pul qazanıb öz ayaqları üstündə durması inandırıcı görünmür".

***Ayşən Vəli***



**Mətanət MƏMMƏDOVA**

# Sizin olmayanı niyə də sevməliydiniz ki?..

Xəbər saytlarında yayımlanan bir xəbər sətiraltı mənası ilə əsəblərimi necə pozdusa, dedim münasibət bildirməsən, bağrım çatlayar, bu gündən sabaha çıxmaram. Ermənistanın Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Alvina Ağababyan deyir ki, ermənilər 26 il Qarabağı dağıtdı, amma Bakı 20 ay içində bu dağıntılar üzərində şəhərlər, kommunikasiya, yüksək səviyyəli yollar, körpülər tikə bildi. Ağababyan ermənı xalqını Qarabağı sevməməkdə ittiham edir: "Bilirsiz niyə belə oldu? Çünki biz bu torpaqları sevmirik, azərbaycanlılar isə sevir və bunu sübut edir. Şuşada möhtəşəm körpü inşa olunub, ikincisi isə yaxın vaxtlarda tikiləcək. Şuşaya gedən yolda isə elə bağ salınır ki, onu hətta kosmosdan da görmək mümkün olacaq. Bütün bunlar 20-21 aya olunub. Biz isə 26 il ərzində Qarabağda yaşayan erməni əhalisi üçün strateji və həyati əhəmiyyətli 80 kilometrlik yolu inşa edə bilməmişik".Birincisi, siz nə üçün Qarabağı sevməlisiniz? Başqasının torpağını niyə də sevməli idiniz? İkincisi, 26 il yox, üst-üstə hesablayanda düz 30 il. Üçüncüsü, sevmirdinizsə, nə üçün 30 ildə sizi qızışdırıb ortalıqda oynadan havadarlarınıza bircə dəfə "yox", demədiniz. İnsan qanından doymadınız? Dədə-baba yurdu dağıtmaqdan usanmadınız? İnsanları evindən-eşiyindən zorla qovmaqdan, qaçqın, köçkün, didərgin edib silahın burnunda torpağından çıxmağa vadar etməkdən çəkilmədiniz? Dördüncüsü, siz elə bir xislətə maliksiniz ki, orada işıq zərrəsi qədər sizə aid bir şey görsəydiniz, indi Qarabağı cənnətə çevirmişdiniz. Siz tülkü kimi bilirdiniz ki, bu torpaqlar sizə aid deyil, gec-tez onun sahibi gələcək. Ona görə də düşündünüz ki, nə edək, nə etməyək, başladınız dağıtmağa, yandırmağa, daşımağa. Axı harada görünüb ki, erməni abadlıq yarada. Sizin xisləitiniz oğurluq, haqsızlıq, nankorluqdan yanadır. Sizin "insanlığınız" dini ocaqlarda özünüzə yaraşan əməllər törətməkdən, tarixi-mədəni abidələri məhv etməkdən, canlı, lakin dilsizağızsız ağacları kəsib-doğramaqdan, satıb pul edib içkiyə verib, içib veyllənməkdən ibarətdir.Təbii ki, Bakı 20-21 aya Qarabağı cənnətə döndərəcəkdi. Kor gözlərinizin qarşısında 44 günə torpağını sizdən almağı bacaran Bakı 20-21 aya da orada cənnət yaradacaqdı da. Yoxsa düşünürdünüz ki, biz 90-cı illərin biziyik. Siz deyəsən, hələ o havalardasınız. Bizsə 90-cı illərdə torpaqları satanları da, sizin havadarlarınızı da yaxşı tanıyıb nəticə çıxarmışıq.Hələ gözləyin, görəcəksiniz Qarabağda daha nə cənnətlər yaradılacaq. Onda ağzınızın suyu yaxanıza axacaq. Axdıqca da pişiyin əli ətə çatmayanda "murdardır" dediyi kimi, siz də Qarabağı "heç sevmirik", deyəcəksiniz. Sevə də bilməzsiniz, çünki sizin olmayanı niyə də sevməlisiniz ki? Heç təsadüfən eşitmisiniz ki, biz sizin o hərədən bir az diləndiyiniz torpaqlarınızdan bir qarışını sevək?..

# "Ermənilər bölgəni tərk etməzdən əvvəl ekoloji terror törədirlər"

"Azərbaycan Prezidenti İlham Əliyevin titanik səyləri nəticəsində Laçın dəhlizinə alternativ 32 km yolun bir il ərzində tikilib istifadəyə verilməsi, əlbəttə, erməni tərəfi üçün şok effekti yaratmışdı. Halbuki belə bir yolun 3 il ərzində tikilə biləcəyi ilə bağlı müddəa Moskvanın moderatorluğu ilə imzalanmış məlum üçtərəfli sazişin şərtlərində nəzərdə tutulmuşdu". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.Onun sözlərinə görə, layihənin qısa zaman çərçivəsində reallaşdırılması Prezident İlham Əliyevin yüksək dərəcədə təşkilatçılığı sayəsində baş tutsa da, yenə həmişəki kimi Prezident İlham Əliyevin qlobal miqyasda yaşanan hadisələrin regional Təhlükəsizlik sahəsində problemlərə sirayət edə biləcəyi ilə bağlı öncəgörücülüyü ilə əlaqədar olmuşdur: "Alternativ yolun istifadəyə verilməsi Azərbaycanın Qarabağ üzərində tam mənada suverenliyinin bərpasına töhfə verəcəyi ilə yanaşı, həm də ölkənin milli təhlükəsizlik maraqlarından irəli gələn məsələ olmuşdur. Bu yol Qarabağdakı erməni icmasının Ermənistanla humanitar sahədə əməkdaşlığına, əlbəttə, əngəl törətməyəcək. Lakin Azərbaycan tərəfinin yeni dəhliz üzərində nəzarət imkanlarını əhəmiyyətli bir şəkildə artıracaq, bu isə Qarabağl əvvəlki tək silahlandırmaqda maraqlı olan Ermənistandakı revanşist, millətçi dairələrin maraqlarına cavab vermir".E.Manafov onu da bildirdi ki, məhz onların təhriki ilə Laçın rayonunda zamanında qeyri-qanuni şəkildə məskunlaşdırılmış erməniləri bölgəni tərk etməzdən əvvəl ekoloji terrora əl atırlar: "Azərbaycanın ekoloji durumunda



problemlər yaratmağa çalışırlar. Erməni tərəfinin bununla 1949-cu ilin Cenevrə konvensiyasının müddəalarını pozması birmənalıdır. Digər tərəfdən, Paşinyan hökuməti üçtərəfli razılaşmanın şərtlərinə razılıq verməklə vaxtı gələndə Laçının Zabux və digər kəndlərinə qeyri-qanuni yerləşdirilmiş ermənilərin köçürülməsi ilə bağlı öhdəliklər götürmüşdür və biz Ermənistan hakimiyyətinin bu öhdəliklərə də əməl etməsinin şahidləriyik. Təbii ki, bütün bunlar Azərbaycan iqtidarı tərəfindən Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına çalışan Brüsselin və Moskvanın, habelə, regional təhlükəsizliyin qorunub-saxlanılmasında və bölgədə əməkdaşlığın genişləndirilməsində maraqlı olan digər region dövlətlərinin də nəzərinə çatdırılacaq".

***Gülyana***

# Denis Denisov: Ermənistanın təxribatlarının arxasında Qərb dayanır

## Rus politoloq:

### “Bakı və İrəvan arasında sülh müqaviləsi bağlanana qədər regionda vəziyyət partlayıcı olaraq qalacaq”



Rusiya Sülhməramlı Təşəbbüslər və Münaqişələri Araşdırma İnstitutunun direktoru Denis Denisov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər, yaranmış vəziyyət, Azərbaycan-Ermənistan sülh razılaşmasının əhəmiyyəti və sair aktual mövzularda maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Ermənistandakı və ümumilikdə Cənubi Qafqazdakı vəziyyət haqqında nə düşünürsünüz?***

- Hazırda ümumi vəziyyəti gərgin, qeyri-sabit və dərhal dialoq formatının təşkilini tələb edən kimi xarakterizə etmək olar. Həqiqi dialoqun olmaması və tərəflərin ortamüddətli perspektivdə kompromis əldə etmək niyyətləri yeni hərbi qarşıdurmaya çevriləcək, buna yol vermək olmaz, çünki bu, mülki əhalinin həyatını təhlükə altına alır, münaqişənin həlli mülki əhalinin maraqlarına cavab verməli olduğu halda əksinə olur.

***- Sizcə, bu gün hansı regional proseslər daha əhəmiyyətlidir?***

- Əsas tendensiyaları qeyd edərdim. Birinci və ən vacibi Ermənistanla Azərbaycan arasında daimi gərginliyə və vəziyyətin kəskinləşməsinə səbəb olan fundamental sülh müqaviləsinin olmamasıdır. Bu razılaşmanın meydana çıxıb-çıxmayacağı hər iki tərəfin siyasi iradəsindən asılıdır. Hələlik, bildirmək məcburiyyətindəyik ki, tam sülhə və razılığa gəlmək üçün yəqin ki, kifayət qədər uzun yol qət edilməlidir. Amma bu lazımdır. Bakı ilə İrəvan arasında sülh müqaviləsi bağlanmayana qədər regionda vəziyyət partlayıcı olaraq qalacaq.

İkincisi, Ermənistandakı qeyri-sabit siyasi sistemdir. Biz hökumətin və ayrı-ayrı idarələrin fəaliyyətindən əhalinin narazılığından yaranan davamlı etirazları, bitib-tükənməyən nümayişləri görürük. Belə daimi turbulentlik Cənubi Qafqazdakı vəziyyətə, xüsusən də Qarabağ nizamlanması kontekstində mənfi təsir göstərir.

***- Azərbaycan Silahlı Qüvvələri Qarabağda "Qisas" əməliyyatı keçirdikdən sonra Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi kəskin şəkildə artıb. Ermənistan tərəfi Rusiyanı kömək etməməkdə və müdaxilə etməməkdə ittiham edir. Siz buna necə baxırsınız və bu açıqlamaların arxasında kimin qulaqları dayanır?***

- Azərbaycanın indi Qarabağ məsələsi çərçivəsində əldə edəcəyi istənilən hərbi, siyasi, iqtisadi və digər məqsədlərin Ermənistan tərəfindən qismən Rusiyanın bu prosesə qarışmaması ilə bağlı problem kimi qəbul edilməsi təbii və anlaşılandır. Unutmaq olmaz ki, Qarabağda olan Rusiya sülhməramlılarıdır, üstəlik regionda sabitliyi, ilk növbədə Ermənistan tərəfi üçün sabitliyi də təmin edən məhz onlardır. Çünki Azərbaycan və Ermənistanın hərbi potensialı hələ də müqayisə olunmazdır.

O ki qaldı bu cür təxribatın arxasında kimin dayanmasına, adlarını çəkməli çoxlu təşkilatlar və konkret adamlar var. Qərbin qulaqlarını, Ermənistan rəhbərliyinə bağlı təşkilatların nümayəndələrini baş nazirin yanında tapmaq olar. Üstəlik, bu tendensiya Ermənistan əhalisinin əhəmiyyətli bir hissəsi üçün də xarakterikdir, çünki onun informasiya məkanı son zamanlar çox təhrif edilib, orada Rusiyanın rolu, missiyası və ideyası yanlış şərh olunub. Hər şey heç bir şəkildə vicdanla, rahatlıqla və bütün sonrakı nəticələrlə təqdim olunmur. Əlbəttə, bu, cavab verilməli və həlli üçün qərar verilməli olan böyük problemdir.

***- Bakı Laçın rayonunda qeyri-qanuni məskunlaşan ermənilərə avqustun sonuna kimi bu ərazini tərk etmələri üçün vaxt verdi. Bu barədə nə düşünürsünüz?***

- Bu problem, mənim anladığım qədər, bir ildən artıq müddət ərzində münaqişənin həllini müşayiət edəcək. Bundan sonra necə inkişaf edəcəyini söyləmək çətindir. Bu, çox mürəkkəb məsələdir, həm də ünsiyyət və dialoq yolu ilə həll olunur. Əgər indi Ermənistanla Azərbaycan arasında, o cümlədən bu məsələ ilə bağlı tamhüquqlu dialoq aparılsaydı, ilk növbədə sadə əhali üçün mənfi nəticələri minimuma endirmək olardı. Bu da ən mühümüdür, çünki hamı başa düşür ki, hər hansı münaqişədən dövlət və məmurlar deyil, döyüş bölgəsində olan insanlar əziyyət çəkir.

***- Rusiya-Ukrayna qarşıdurması kontekstində Türkiyənin mövqeyini necə qiymətləndirirsiniz?***

- Türkiyənin mövqeyi kifayət qədər başa düşüləndir və proqnozlaşdırıla bilər. Ankara regional güc roluna iddia edərək, ilk növbədə milli maraqlar çərçivəsində işləməyə çalışır. Diplomatiya və Türkiyə rəhbərliyi bunu gizlətmir. Bu ölkə, təbii ki, Rusiya-Ukrayna münaqişəsinin həllində əsas vasitəçi olmaq istərdi, çünki o, bir çox cəhətdən baş verənlərdən çox ciddi faydalanan tərəfdir.

Ukraynada xüsusi hərbi əməliyyatın başlanğıcından bəri türklərin artıq böyük fayda əldə edə bildiyi bir çox sahələri sadalaya bilərsiniz. Məsələn, Moskva üçün Ankara Avropa ilə nəqliyyat əlaqələri baxımından əsas nəqliyyat mərkəzinə çevrilib. Xüsusilə reeksport iqtisadiyyatı, eləcə də digər məsələlər baxımından belə misallar çoxdur.

Türkiyə bundan sonra da bu rolu oynamağa çalışacaq və bu təbiidir. Tərəflər buna kifayət qədər balanslı şəkildə baxırlar. Ukrayna tərəfinin hazırda heç bir danışıqları istəmədiyini əsas götürərək, Rusiya tərəfi əksinə, danışıqların zəruriliyindən danışır, lakin hesab edirəm ki, Ankara bundan sonra da vacib rol oynamağa çalışacaq, lakin bunun müvəffəqiyyətə gətirib çıxaracağını söyləmək çətin olaraq qalır.

***Tərcümə - Elçin Bayramlı***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”“ istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS

19 avqust
2022-ci il

# “Qarabağ” inanılmaz dərəcədə yüksək keyfiyyətli komandadır”

**“Viktoriya”nın (Plzen, Çexiya) qapıçısı Yindrjix Stanek Çempionlar Liqasının pley-off mərhələsində Bakıda ”Qarabağ”la qolsuz heç-heçə etdikləri matç haqqında danışıb.**



SİA Qol.az-a istinadən xəbər verir ki, 7 seyv edərək komandasını real qollardan qurtaran qolkiper klubun rəsmi saytına açıqlamasında deyib:

”Qarabağ”la oyunda çox iş görməli olacağımı əvvəlcədən gözləyirdim. ”Qarabağ” inanılmaz dərəcədə yüksək səviyyəli, keyfiyyətli komandadır. Onların futbolçularının fərdi ustalıqları möhtəşəmdir. Cavab oyununu evdə keçirəcəyik. Doğma meydanda oynamaq hissi həmişə yaxşıdır. İnanıram ki. azarkeşlərimizin qarşısında qələbə qazanaraq Çempionlar Liqasının qrupuna düşəcəyik”.

Qapıçı oyunda sarı vərəqə alaraq cəzalı duruma düşdüyünə görə cavab görüşünü buraxacaq kapitan Lukaş Heyda üçün məyus olduğunu bildirib: ”O, bizim kapitanımızdır. Lukaş ən yaxşı müdafiəçimiz, əsas oyunçumuzdur. Amma komandamızda elə keyfiyyətli futbolçular var ki, Lukaşı əvəz edə bilərlər”.

Qeyd edək ki, bu komandalar arasında avqustun 23-ü Çexiyada keçiriləcək cavab görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Səhərlər su içmək vərdişi uzunömürlülüyün açarıdır

Həkimlər hesab edirlər ki, səhər oyandıqdan sonra su içmək sadə, lakin sağlamlıq üçün bir çox cəhətdən çox faydalı vərdişdir.

SİA AZƏRTAC-a istinadən xəbər verir ki, genetik Viki Godfri müsahibəsində bildirib ki, səhər su içmək vərdişi orqanizmin sağlamlığının qorunub saxlanmasının açarıdır, eyni zamanda, uzun ömür yaşamaq şanslarını artırır.

”Səhər oyandıqdan sonra su içmək daha uzun ömür sürmək şanslarınızı artırmaq üçün sadə, lakin təsirli bir yoldur”, - deyə Viki Godfri bildirib. Ekspert qeyd edib ki, su içməyin faydası barədə çox adamın məlumatı olsa belə, əslində, kifayət qədər maye qəbul edənlər azdır. Mütəxəssisin məlumatına əsasən, təxminən hər altı yetkin insandan biri kifayət qədər su içmir, bu rəqəm insanların 60 və daha yuxarı yaş həddinə çatdıqca artır.

Həkim gecə ərzində maye qəbul etməmiş hüceyrələri su ilə təmin etmək üçün səhər oyandıqdan sonra otaq temperaturunda su içməyi tövsiyə edir.

”Bu səhər vərdişinin başqa bir faydası ondan ibarətdir ki, o, immun sisteminin mühüm hissəsi olan limfa sistemini tarazlamağa kömək edir. İmmun funksiyamız güclü olduqda, xəstəliklərdən qorunma səviyyəsi artır - bu, ömrün uzunluğuna müsbət təsir göstərir”, - deyə ekspert əlavə edib.

Viki Qodfrinin fikrincə, uzunömürlülüyü təşviq edən başqa bir səhər vərdişi - səhər saat 9-da piyada gəzməkdir - bu, möhkəm sağlamlıq üçün vacib olan D vitamininin səviyyəsini qoruyub saxlamağa effektiv kömək edir.



# Xocalıda avtomobil aşıb

Xocalıda avtomobil aşıb, ölən var.

Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, avqustun 17-i saat 08:00 radələrində rayonun Çanaqçı kəndi ərazisində Bakı şəhər sakini Bəhruz Zeynalov idarə etdiyi ”Mercedes” avtomobili aşırıb. Nəticədə sürücü hadisə yerində ölüb.

Xocalı Rayon Polis Şöbəsində araşdırma aparılır.



# ABŞ “Minuteman III” qitələrarası ballistik raketi sınaqdan keçirdi

ABŞ ”Minuteman III” qitələrarası ballistik raketini 16 avqust 2022-ci il tarixində növbəti dəfə sınaqdan keçirib.

SİA-nın əldə etdiyi məlumata görə, bu barədə ABŞ Hərbi Hava Qüvvələrinin Qlobal Hücum Komandanlığı məlumat yayıb.

Qeyd edilib ki, bu ballistik raket çoxsaylı nüvə başlıqları daşıya bilir. Raketin təlim döyüş başlıqları 6760 kilometr məsafə qət edərək Sakit okeanın mərkəzində yerləşən Kvajaleyn (Marşal adaları) yaxınlığındakı poliqonda hədəflərini vurub.

Bu sınaq Birləşmiş Ştatların nüvə silahından çəkindiricilik, təhlükəsiz, etibarlı, 21-ci əsrin təhdidlərinin qarşısını almaqda və müttəfiqlərimizi əmin etməkdə effektiv olduğunu nümayiş etdirməyə yönəlmiş müntəzəm və dövri fəaliyyətlərin bir hissəsidir. Bu cür sınaqlar əvvəllər 300 dəfədən çox aparılıb və bu sınaq hazırkı qlobal hadisələrin nəticəsi deyil.

Qeyd edək ki, bu ayın əvvəlində ABŞ Tayvan yaxınlığındakı təlimlər səbəbindən Çinlə gərginliyin artmasının qarşısını almaq və aprel ayında Ukraynada davam edən müharibə zamanı Rusiya ilə nüvə gərginliyini azaltmaq üçün sözügedən sınaqları iki dəfə təxirə salmışdı.

Xatırladaq ki, ”Minuteman III” qitələrarası ballistik raketi 12 min kilometr məsafədə yerləşən hədəfləri vura bilər.

# “Qalaaltı” yaxınlığındakı meşə yanğınları söndürülüb

Şabran rayonunda yerləşən ”Qalaaltı” İstirahət Mərkəzinin yaxınlığındakı meşəlik ərazidə baş vermiş yanğın söndürülüb.

Bu barədə SİA-ya Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.

Hazırda havanın isti və küləkli olması yanğın ocaqlarının tam söndürülməsinə mane olsa da, FHN-in yanğınsöndürmə qüvvələri tərəfindən mürəkkəb relyefli dağlıq, o cümlədən çətin keçilən və sıldırımlı qayalıq ərazidən xüsusi alpinist vasitə və ləvazimatlardan istifadə olunmaqla, Çıraqqala qalasından ”Qalaaltı” İstirahət Mərkəzinə doğru yuxarıdan aşağı istiqamətdə soyutma işləri aparılır.

Bu gün səhər saatlarında fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev baş vermiş yanğınlarla bağlı ”Qalaaltı” İstirahət Mərkəzində operativ əməliyyat müşavirəsi keçirib. Tədbirdə FHN-in aidiyyəti strukturlarının məsul şəxsləri, Siyəzən və Şabran Rayon İcra hakimiyyətlərinin başçıları, adı çəkilən rayonlarda fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.

Bildirilib ki, təkcə ötən gün respublika üzrə



154 yanğına çıxış qeydə alınıb ki, onun da 38-i Şimal bölgəsinin payına düşür. Müşavirədə baş vermiş yanğınların genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində görülmüş işlər müzakirə olunub, zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

Eyni zamanda, nazir müavini E.Mirzəyev ”Qalaaltı” İstirahət Mərkəzində istirahət edən vətəndaşlarla görüşüb. O deyib ki, yanğın təhlükəsinin qarşısının alınması istiqamətində müvafiq zəruri tədbirlər həyata keçirilib, heç bir təhlükə mövcud deyil.

Hazırda fövqəladə hallar nazirinin müavini general-leytenant E.Mirzəyev baş vermiş yanğınların qarşısının alınması ilə bağlı Şimal bölgəsindədir. Bu bölgədə yanğınlarla mübarizəyə 600 nəfər şəxsi heyət, 80-ə yaxın texnika, 2 ədəd helikopter və 1 ədəd ”BE 200 ÇS” amfibiya təyyarəsi cəlb olunub.

Xatırladaq ki, yanğınlarla mübarizə tədbirlərində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin, Şimal və Şimal-qərb regional mərkəzlərinin, Mülki müdafiə qoşunları və Xüsusi Riskli Xilasetmə Xidmətinin, Ekologiya və Təbii Sərvətlər və Daxili İşlər nazirliklərinin əməkdaşları iştirak edir. Həmçinin, yanğınsöndürmə əməliyyatlarına ”Azərsu” ASC-nin, yerli İcra Hakimiyyətinin müvafiq texnikaları da cəlb edilib.

## ELAN

Şamaxı rayon Aqrar İslahatı Komissiyası tərəfindən Məmmədova Qızbəs Bələd qızının adına verilmiş rayonun Nağaraxana kəndində yerləşən JN 760 A kod 41011018 torpaq sahəsinə aid torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Milli Avasiya Akedemiyasının 2-ci kurs tələbəsi İbrahimov Tural Zəfər oğlunun adına verilmiş 1111A qruppalı tələbə bileti ( Magistratura) itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**